AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI

# ülfat

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 26 AVQUST 2021-Cİ İL / № 31 (1249) WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU



## Prezident İlham Əliyev BMT-nin Azərbaycanda yeni təyin olunmuş rezident əlaqələndiricisini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi xanım Vladanka Andreyevanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva təyinatı ilə bağlı məktubu Prezident İlham Əliyevə təqdim edərək dedi:

-BMT-nin Azərbaycan Respublikasına rezident əlaqələndirici vəzifəsinə təyin olunmağımla bağlı məktubu Sizə təqdim etməkdən məmnunluq hissi keçirirəm. Dayanıqlı İnkişaf Məqsədlərini inkişaf etdirməkdə və onlara nail olmaqda Azərbaycana dəstək vermək üçün burada olmaq və BMT sisteminə rəhbərlik etmək mənim üçün şərəfdir.

BAX SƏHİFƏ: 2

## “Mehriban xanım Əliyeva öz fəaliyyəti ilə, gördüyü nəcib və humanist işlərlə Azərbaycanı dünyada uğurla təmsil edir”



“Avqustun 26-sı Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın doğum günüdür. Bu münasibətlə öz adımdan, həmçinin çoxminli həmkarlar ittifaqlarının üzvləri adından Mehriban xanımı səmimi-qəlbdən təbrik edir, ona xalqımız və dövlətimiz naminə fəaliyyətinin bütün istiqamətlərində uğurlar və möhkəm cansağlığı arzulayıram.

Mehriban xanım müasir tariximizin ən dəyərli simalarından biridir. Onun dövlətimizin və xalqımızın həyatında gördüyü işlər təkcə ölkə vətəndaşları tərəfindən deyil, eyni zamanda dünya ictimaiyyəti tərəfindən təqdir olunur və yüksək səviyyədə qiymətləndirilir. Fəaliyyətinin hər bir məqamında Vətənə tükənməz sevgi və sədaqət, milli dəyərlərə hörmət, humanizm, xeyriyyəçilik, insanlara böyük qayğı və məhəbbətlə yanaşmaq prinsipləri durur”.

**Bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.**

BAX SƏHİFƏ: 3

### Vətən Müharibəsi Qəhrəmanlarına və onların ailə üzvlərinə göstərilən yüksək dövlət qayğısı

BAX SƏHİFƏ: 2

### Sahə üzrə aktual məsələlər nəzərdən keçirildi

BAX SƏHİFƏ: 4

### İxtisas seçimi edərkən daha çox nələrə diqqət yetirilməlidir?

BAX SƏHİFƏ: 6



### Rayon və şəhər komitəsi sədrləri üçün onlayn seminar

BAX SƏHİFƏ: 3



### AHİK özünüməşğulluq proqramının icrasında yaxından iştirak edir

BAX SƏHİFƏ: 4

### Əlillik dərəcəsinin verilməsi qaydası dəyişib

BAX SƏHİFƏ: 6

### Erməni təxribatlarının arxasında nə durur?

BAX SƏHİFƏ: 6

## Azərbaycanda koronavirus infeksiyasına 3794 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 3794 yoluxma faktı qeydə alınıb, 2216 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 33 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 401 min 828 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 350 min 670 nəfər müalicə olunaraq sağalıb, 5 min 403 nəfər vəfat edib. Aktiv xəstə sayı 45 min 755 nəfərdir.

**Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 17 min 835, bu günə qədər isə ümumilikdə 4 milyon 362 min 263 test icra olunub.**

### Uşaqların sağlam gələcəyi bizdən ciddi tədbirlər görməyi tələb edir

BAX SƏHİFƏ: 8

### Gənclərimiz hər cür diqqətə layiqdir

BAX SƏHİFƏ: 4

### Təşəkkürnamə ilə mükafatlandırıldı

BAX SƏHİFƏ: 4

### Hüquq məsləhətxanası



BAX SƏHİFƏ: 8

### Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

Beynəlxalq

### Ərəb ölkələrində qadınlar və gənclər arasında işsizlik artmaqdadır

### İşdən azadedilmə barədə bildiriş ləğv edilməlidir

BAX SƏHİFƏ: 7

# Prezident İlham Əliyev BMT-nin Azərbaycanda yeni təyin olunmuş rezident əlaqələndiricisini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi xanım Vladanka Andreyevanı qəbul edib.**

**AZƏRTAC xəbər verir ki, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva təyinatı ilə bağlı məktubu Prezident İlham Əliyevə təqdim edərək dedi:**

**-BMT-nin Azərbaycan Respublikasına rezident əlaqələndirici vəzifəsinə təyin olunmağımla bağlı məktubu Sizə təqdim etməkdən məmnunluq hissi keçirirəm. Dayanıqlı İnkişaf Məqsədlərini inkişaf etdirməkdə və onlara nail olmaqda Azərbaycana dəstək vermək üçün burada olmaq və BMT sisteminə rəhbərlik etmək mənim üçün şərəfdir.**



**Prezident İlham Əliyev dedi:**

**-Xoş gəlmisiniz. Sizi görməyə şadam. Sizə Azərbaycanda yaxşı vaxt keçirməyi arzulayıram. Bildiyiniz kimi, Azərbaycan həmişə BMT-nin fəal üzvü olmuşdur. Biz təqribən on il bundan əvvəl beynəlxalq birliyin böyük dəstəyi ilə hətta Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdik. 155 ölkə bizim namizədliyimizi dəstəkləmişdir və bu da Azərbaycanın beynəlxalq nüfuzunu və fəal xarici siyasətini nümayiş etdirirdi. İkiillik sədrlik dövründə biz mühüm məsələlərlə bağlı təşəbbüslər irəli sürdük və beynəlxalq birliyin gündəliyində duran vacib qlobal məsələlərə toxunduq. İndi isə BMT-dən sonra ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatının sədri kimi biz beynəlxalq münasibətlər sistemində mühüm rol oynayırıq və BMT Baş katibinin təşəbbüslərinə dəstək oluruq, xüsusilə COVID ilə mübarizə sahəsində. Bildiyiniz kimi, ötən ilin sonunda Qoşulmama Hərəkatının sədri kimi bizim təşəbbüsümüzlə koronavirusa həsr olunmuş BMT Baş Assambleyasının xüsusi sessiyası keçirilmişdir və bu da bu xəstəliyə qarşı bizim qlobal mübarizəyə bir töhfəmiz idi. Həmçinin milli qisimdə 30-dan çox ölkəyə yardım göstərmişik. Maliyyə, humanitar yardımı göstərmişik, biz dəstəyə ehtiyacı olan ölkələrlə peyvəndləri paylaşmışdıq. Bu, bizim beynəlxalq birliyin məsul üzvü kimi gündəliyimizi nümayiş etdirir.**

İmkanlarımız və potensialımız daxilində biz sülhə və təhlükəsizliyə töhfə verməyə çalışırıq. BMT ilə bizim fəal qarşılıqlı əlaqəmiz Ermənistanın təcavüzü nəticəsində başlamışdır və 1993-cü ildə Təhlükəsizlik Şurasının məşhur qətnamələri qəbul olunmuşdur. Bu, çox müsbət addım idi, erməni təcavüzünə toxunularaq bizə dəstəyin çox ümidverici bir jesti idi. Bizim beynəlxalq səviyyədə tanınan ərazilərimizdən erməni qoşunlarının dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələbi Təhlükəsizlik Şurasının çox mühüm siyasi bir jesti idi. Lakin, əfsuslar olsun ki, bu qətnamələr icra olunmamışdır və yəqin sizin də bildiyiniz kimi, Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizminin olmaması məsələsini mən şəxsən dəfələrlə qaldırmışam. Bəzi hallarda qətnamələr qısa müddət ərzində icra olunur, lakin bizə gəldikdə onlar beynəlxalq iştirakçılar tərəfindən, ümumiyyətlə, icra olunmamışdır. Xüsusilə bizi narahat edən və Azərbaycan cəmiyyətinin anlamaqda çətinlik çəkdiyi məsələ o idi ki, bu qətnamələri qəbul edənlər, Təhlükəsizlik Şurasının daimi üzvü olan beş ölkədən üçü ATƏT-in Minsk qrupuna həmsədr olan və hələ də həmsədrlik edən ölkələrdir. Onlar özləri bu qətnamələri qəbul etmişdir. Bu qətnamələrin həyata keçirilməsinə imkan yaratmaq üçün onların mandatı var idi. Lakin, əfsuslar olsun ki, 28 il ərzində Minsk qrupu çox imkanları əldən verib. Bir çox hallarda mən Ermənistana qarşı sanksiyaların tətbiq edilməsi məsələsini qaldırmışdım. Çünki düşünürdüm ki, bu, toqquşmanın, müharibənin qarşısının alınması üçün bir yol ola bilərdi. Biz məsələni sülh yolu ilə həll etmək istəyirdik. Ötən il, müharibədən cəmi bir neçə gün əvvəl, Baş Assambleyada çıxış edərkən mən beynəlxalq birliyi xəbərdar edərək, Ermənistanın müharibəyə hazırlaşdığını dedim. Bu, təbliğat deyildi, Ermənistanın müharibədən əvvəlki aylar ərzində davranışının real təhlilinin nəticəsi idi. Əfsuslar olsun ki, mən haqlı çıxdım. Ona görə də, əgər Ermənistana qarşı vaxtında sanksiyalar tətbiq edilsəydi, əgər Minsk qrupunun həmsədrləri, dünyanın üç aparıcı ölkəsi potensialının 5 faizini Ermənistanı öz işğalçı qüvvələrini geri çəkməyə inandırmağa və ya məcbur etməyə istifadə etsəydi, müharibə baş verməzdi. Odur ki, müharibəyə görə məsuliyyət yalnız Ermənistanın üzərində deyil, həmçinin onu beynəlxalq hüquqa riayət etməyə məcbur edə bilməyən və ya bunu etmək istəməyənlərin üzərinə düşür. Nəticədə Azərbaycan bu qətnamələri beynəlxalq hüququn normaları çərçivəsində özü həyata keçirdi. Biz ədaləti, beynəlxalq hüququn normalarını bərpa etdik. Biz Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrini özümüz yerinə yetirdik. Biz BMT-nin Nizamnaməsini rəhbər tutaraq hərəkət etdik. 51-ci maddə hər bir ölkənin özünümüdafiə hüququnu tanıyır. Beləliklə, biz bütün beynəlxalq alətlərdən istifadə edərək, öz ərazi bütövlüyümüzü bərpa etdik.

**İndi müharibə bitib, münaqişə həll olunub, bu baş verənlər haqda danışılası heç bir məsələ qalmayıb. Biz artıq gələcəyə baxmalıyıq və hazırda bizim əsas narahatlığımız dağıdılmış, tamamilə viran qoyulmuş ərazilərin bərpasıdır. Əlbəttə ki, biz Birləşmiş Millətlər Təşkilatı ilə bu məsələlərdə, humanitar vəziyyətlə bağlı məsələlərdə, işğaldan azad olunmuş ərazilərin bərpasına dair planlarımızla bağlı gələcək əməkdaşlığa ümid edirik. Sözsüz ki, bizim BMT institutları ilə daha çox qarşılıqlı əlaqəyə ehtiyacımız var. Bildiyiniz kimi, UNESCO ilə də təmasdayıq. Biz UNESCO-nu, demək olar ki, 30 ilə yaxındır gözləyirik. Bilmirəm, bunu bilirsiniz, ya yox, biz bir neçə il bundan öncə hələ işğal dövründə, UNESCO-nu buraya səfər etməyə və bizim ərazilərdə nələrin törədildiyini görməyə dəvət etmişdik. Çünki ATƏT-in Minsk qrupu işğal olunmuş ərazilərə artıq iki faktaraşdırıcı missiya göndərmişdi. Biz onlardan yenidən bir missiya göndərməyi xahiş etdik, lakin onlar göndərmədilər. Biz UNESCO-dan tarixi abidələrimizə erməni təcavüzkarları tərəfindən dəymiş ziyanı gəlib görməyi xahiş edirdik, lakin onlar imtina etdilər. UNESCO rəsmiləri dedilər ki, UNESCO siyasi məsələlərə qarışmır. Lakin müharibə bitdikdən sonra UNESCO tərəfindən onların gəlmək istədiyinə dair siqnallar aldıq. Əlbəttə, biz öz təəccübümüzü bildirdik. Çünki, demək olar, 30 il idi ki, biz onları çağıranda gəlmirdilər. Müharibədən sonra isə gəlməyə qərar verdilər. Buna görə biz buna razılaşdıq və mənim də bildiyim qədər son məlumat belə idi ki, missiya artıq yaradılıb, amma indi Ermənistan yenə etiraz edir. Buna görə yenə də missiya gecikir.**

BMT-nin digər təsisatları ilə daimi təmasdayıq. Bizə ekspert biliyi və məsləhətlər nöqteyi-nəzərdən geniş beynəlxalq iştirak və yardım lazım olacaq. Çünki indi bizim bərpa etdiyimiz ərazi on minlərlə kilometrdən çoxdur və əlbəttə ki, biz BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı ilə təmasdayıq. Mümkün olan ən qısa müddətdə bütün keçmiş məcburi köçkünləri orada yenidən məskunlaşdırmağı planlaşdırırıq, amma əsas problem mina və hər yerin tamamilə dağıdılıb, viran qoyulmasıdır. Buna görə də Birləşmiş Millətlər Təşkilatı və qurumları ilə əsas məqsədimiz bir-birimizə etimad göstərərək və tərəfdaş olaraq azad edilmiş torpaqlarımızın bərpa edilməsinə nail olmaqdır. Bakıdakı nümayəndəliyinizin bu işə fəal cəlb olunacağına güvənirik.

***

**BMT-nin rezident əlaqələndiricisi Vladanka Andreyeva dedi:**

-Sağ olun, cənab Prezident. BMT ilə Azərbaycan arasında dostluğun artıq 29 yaşı var. Gələn il, biz Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyini qeyd edəcəyik. Eyni zamanda, BMT-nin Bakıda nümayəndəliyinin açılmasının da 30 illiyi olacaq. Bir halda, qeyd olunacaq və nəzərdən keçiriləcək tarixlər çoxdur, hesab edirəm ki, son 18 ay görünməmiş hadisələrlə yadda qaldı. COVID-19 qlobal böhrana çevrildi və bir çox dövlətlər mübarizə aparırdılar. Mən COVID-19-a qarşı çox qətiyyətli milli cavab tədbirlərinin görülməsində Sizin və hökumətinizin göstərdiyi səyləri alqışlamaq istəyirəm. Bununla belə, Siz də qeyd etdiniz ki, bu dövrdə biz çoxtərəfliliyə, ümumi məsuliyyətə daha güclü sadiqliyimizi nümayiş etdirməli olduq. Biz, ilk olaraq, COVID-19-a qarşı cavab tədbirlərinin müzakirəsinə həsr olunmuş Qoşulmama Hərəkatının Zirvə görüşünün keçirilməsi, sonra isə, BMT-nin Baş Assambleyasında xüsusi sessiyanın təşkil olunması üçün göstərdiyiniz səylərə görə minnətdarıq.

**Azərbaycanda peyvənd işlərinə gəldikdə, ölkəniz regionda perspektivli mövqelərdən birini tutur. BMT son 18 ay ərzində gördüyü işlərə sadiq qalaraq, öz yardımını bundan sonra da göstərməyə hazırdır. Biz 4 milyona yaxın ilk təcili əşyalardan ibarət dəstləri paylamışıq. Hökumət ilə səhiyyə işçilərinin birgə təlimlərinə sərmayələr yatırmışıq. Həmin təlimlərdən 3 mindən artıq işçi keçmişdir. COVID-19-un qarşısının alınmasına yönəlmiş ictimai kampaniya 1 milyondan artıq insanı əhatə etmişdir. Sizin də qeyd etdiyiniz kimi bu, son 18 ay ərzində Azərbaycan xalqının üzləşdiyi yeganə çətinlik olmamışdır. Ümid edirik ki, noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat Cənubi Qafqaz regionunda uzunmüddətli sülhün bərqərar olunmasında, əmin-amanlığa və əməkdaşlığa aparan yeni eraya təkan olacaq. BMT tərəfindən dekabr ayında Qarabağ bölgəsində tələbatların qiymətləndirilməsində hökumətə dəstək olmuşuq. Biz əvvəlki təmas xətti boyu 6 rayonda minaların təmizlənməsi üçün ANAMA-ya yardım məqsədilə dərhal 1 milyon dollar topladıq. Biz minaların təmizlənməsi işində milli mütəxəssislərə dəstəyi davam etdirəcəyik, çünki anlayırıq ki, bu, prioritetdir. Eyni zamanda, BMT Dünya Bankı, Avropa İttifaqı və digər beynəlxalq tərəfdaşlar ilə fond yaradaraq, əlaqələndirmə işini aparır ki, ANAMA üçün təlimlər davam etsin və minaların təmizlənməsi prosesi ən yüksək standartlara uyğun aparılsın. Biz məcburi köçkünlərin həmin bölgəyə təhlükəsiz və ləyaqətli şəkildə qayıdışı üçün göstərilən səylərin dəstəklənməsinə tam sadiq qalırıq. İrəliyə doğru addım ataraq, martın 1-də biz BMT ilə Azərbaycan arasında əməkdaşlığa dair yeni Çərçivə sənədini, yeni paktı imzalamışıq. Növbəti beş il ərzində qarşımızda çox böyük vəzifələr qoymuşuq. Əslində, biz inklüziv artıma dəstək vermək və gənclərlə iş aparmağı arzulayırıq ki, onların əmək bazarlarına aid bacarıqları formalaşsın. Biz, həmçinin daha yaşıl iqtisadiyyatın qurulmasında və səhiyyə, sosial müdafiə, təhsil və ədliyyə sahələrində xidmət göstərən təsisatların imkanlarının gücləndirilməsində hökumətin təşəbbüslərinə dəstək vermək istərdik. Bundan əlavə, qadın və qızların həyatın bütün sahələrində imkanlarının genişləndirilməsi istiqamətində hökumətin səylərini dəstəkləmək istərdik.**

# Vətən Müharibəsi Qəhrəmanlarına və onların ailə üzvlərinə göstərilən yüksək dövlət qayğısı



**Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsi qəhrəmanlarının və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə “Vətən Müharibəsi Qəhrəmanı” adı verilmiş şəxslərin, eləcə də ölümündən sonra həmin ad verilmiş şəxslərin ailə üzvlərinin mənzillə təmin edilməsini həyata keçirmək və görülmüş işlər barədə Azərbaycan Respublikasının Prezidentinə mütəmadi məlumat vermək tapşırılıb.

Sərəncamda həmin şəxslərin mənzillə təmin olunmasının bu məqsədlə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun nazirliyin balansına verdiyi və ya nazirliyin həmin məqsəd üçün əldə etdiyi mənzillər hesabına həyata keçirilməsi müəyyən edilib.

Həmçinin İpoteka və Kredit Zəmanət Fonduna Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müraciəti əsasında Vətən müharibəsi qəhrəmanlarının və onların ailə üzvlərinin mənzillə təmin edilməsi üçün balansında olan mənzillərin Fondun mənfəəti hesabına həmin nazirliyin balansına verilməsini təmin etmək tapşırılıb.

Bu Sərəncam həmin kateqoriyadan olan şəxslərə dövlət başçısı tərəfindən daha yüksək qayğının təzahürüdür.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, Sərəncama əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi “Vətən Müharibəsi Qəhrəmanı” adı verilmiş şəxsləri və ölümündən sonra həmin ad verilmiş şəxslərin ailə üzvlərini mənzillə təmin edəcək.**

“Azərbaycan Respublikasının “Vətən Müharibəsi Qəhrəmanı” adının təsis edilməsi haqqında” 26 noyabr 2020-ci il tarixli Qanununa əsasən, “Vətən Müharibəsi Qəhrəmanı” adı Azərbaycan Respublikasının ən ali fərqlənmə dərəcəsi kimi müəyyən olunub.

**Prezident İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Silahlı Qüvvələrimizin bir qrup hərbi qulluqçularına “Vətən Müharibəsi Qəhrəmanı” adı verilib.**

Ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdikləri qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiklərinə görə “Vətən Müharibəsi Qəhrəmanı” adı verilmiş şəxslər, habelə ölümündən sonra həmin ad verilmiş şəxslərin ailə üzvləri xüsusi diqqət və qayğı ilə əhatə olunublar. Dövlət başçısının 30 dekabr 2020-ci il tarixli Fərmanına əsasən Vətən Müharibəsi Qəhrəmanlarına (ölümündən sonra bu ad verildikdə və ya həmin ad verilmiş şəxs sonradan vəfat etdikdə, həmin şəxsin ailə üzvlərinə) dövlət qayğısını artırmaq məqsədilə onlar üçün Prezidentin təqaüdü təsis edilib. Təqaüdün aylıq məbləği 2 min manat müəyyən olunub.

Şəhidlərimizin ailə üzvlərinin, müharibə qazilərinin çevik və genişmiqyaslı sosial dəstək paketi ilə əhatə olunması dövlətimizin sosial siyasətinin prioritetlərindən biridir. Dəstək istiqamətlərindən biri kimi, şəhid ailələrinin, müharibə əlillərinin mənzillə və fərdi evlə təminatı sahəsində mühüm addımlar atılır. Ötən dövrdə 10 min 500 şəhid ailəsi və müharibə əlilli mənzil və fərdi evlə təmin edilib. 2021-ci ildə də 3 minədək mənzil və fərdi evin bu kateqoriyalardan olan vətəndaşlara verilməsi nəzərdə tutulub ki, onlardan artıq 1300 mənzil və fərdi ev şəhid ailələri və müharibə əlillərinə təqdim edilib.

**Vətən Müharibəsi Qəhrəmanlarının və onların ailə üzvlərinin mənzillə təmin edilməsi barədə yeni Sərəncamla həmin kateqoriyadan olan vətəndaşlar da dövlətin mənzillə təminat proqramına daxil edilir və bu proqramın əhatə dairəsi daha da genişlənir.**

# "Mehriban xanım Əliyeva öz fəaliyyəti ilə, gördüyü nəcib və humanist işlərlə Azərbaycanı dünyada uğurla təmsil edir"

**"Avqustun 26-sı Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın doğum günüdür. Bu münasibətlə öz adımdan, həmçinin çoxminli həmkarlar ittifaqlarının üzvləri adından Mehriban xanımı səmimi-qəlbdən təbrik edir, ona xalqımız və dövlətimiz naminə fəaliyyətinin bütün istiqamətlərində uğurlar və möhkəm cansağlığı arzulayıram.**

**Mehriban xanım müasir tariximizin ən dəyərli simalarından biridir. Onun dövlətimizin və xalqımızın həyatında gördüyü işlər təkcə ölkə vətəndaşları tərəfindən deyil, eyni zamanda dünya ictimaiyyəti tərəfindən təqdir olunur və yüksək səviyyədə qiymətləndirilir. Fəaliyyətinin hər bir məqamında Vətənə tükənməz sevgi və sədaqət, milli dəyərlərə hörmət, humanizim, xeyriyyəçilik, insanlara böyük qayğı və məhəbbətlə yanaşmaq prinsipləri durur".**





**Bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.**

Onun sözlərinə görə, tarixən xalqımızın qurub yartdığı dövlətlərin və cəmiyyətlərin həyatında qadınlarımızın rolu böyük olub: "Ədəbi-mədəni mühütün yaranmasında və formalaşmasında, cəmiyyətin ictimai-siyasi taleyində, Vətənin müdafiəsində xüsusi xidmətlər göstəriblər. Heç də təsadüfü deyil ki, tariximiz boyu Vətən və Ana anlayışları bərabər tutulub. Tomris ana, Nüşabə, Sara xatun, Tuti Bikə, Xurşudbanu Natəvan, Zərifə xanım və digər bu kimi fədakar qadınlarımızın sayəsində Ana adı Vətən qədər müqəddəsləşib. Qədirbilən xalqımız onun həyatında xidmətləri olan insanları heç vaxt unutmur, həmişə layiq olduqları qiyməti verir. Öz tarixinə və soykökünə bağlı olan Mehriban xanım bu ənənəni uğurla davam etdirir. Ölkəmizin ictimai həyatının bütün sahələrində Mehriban xanımın müsbət izləri görünməkdədir".

**"Xalqımızın milli-mənəvi dəyərlərinin inkişafında, qeyri-maddi irsin təbliğində, adət-ənənələrinin qorunmasında əzmkarlıqla çalışan Mehriban xanım insanların böyük sevgi və sonsuz məhəbbətini qazanıb. Müstəqilliyimizin ilk illərində mədəniyyətimizin incisi, musiqi tariximizin kökü hesab olunan muğama diqqət azalmışdı. Demək olar ki, muğam ifaçıları unudulmuşdu. Məhz Mehriban xanımın diqqət və qayğısı, irəli sürdüyü təşəbbüslər, həyata keçirdiyi layihələr sayəsində muğamın əvvəlki nüfuzu özünə qaytarıldı. Ölkəmizin bəzi şəhər və rayonlarında muğam mərkəzləri açıldı, cənab Prezident İlham Əliyev və Mehriban xanım həmin açılışlarda şəxsən iştirak edərək bu sənətin nümayəndələri ilə görüşüb söhbətlər etdilər. Ard-arda muğam müsabiqələri təşkil olundu, bu sahədə istedadı olan gənclər aşkar edilərək üzə çıxarıldı. Bu gün həmin müsabiqələrin iştirakçılarının böyük qismi muğam sənətinin mahir ifaçıları sırasında layiqli yer tuturlar", - deyə AHİK sədri bildirib.**

Millət vəkili qeyd edib ki, Mehriban xanım hələ Milli Məclisin deputatı olduğu zamanlar mütəmadi olaraq seçicilərlə görüşlər keçirib, onların qayğıları ilə maraqlanıb, rəy və təkliflərini öyrənib, sosial problemlərinin həlli istiqamətində müvafiq tədbirlər görüb: "Seçicilərin dərin hörmət və rəğbətini qazanan Mehriban xanım parlamentdə dövlətimiz və xalqımızın maraqlarından çıxış edərək bir sıra vacib qanunların qəbul olunmasında yaxından iştirak edib. Vətəninə sonsuz sevgisi, milli-mənəvi dəyərlərə dərin hörməti, ölkənin ictimai-siyasi həyatındakı xidmətləri, xalqa olan tükənməz sevgisi onun ölkəmizin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmasını şərtləndirən əsas amillərdəndir. Bacarıqlı siyasi fəaliyyəti, yüksəksəviyyəli təşkilatçılıq məharəti, özünəməxsus idarəçilik xüsusiyyətləri, humanist yanaşma tərzi sayəsində Mehriban xanım bu vəzifənin öhdəsindən ləyaqətlə gəlir ".

**S.Möhbalıyev deyib: "Onun siyasi fəaliyyətinin kökündə humanizm dayanır, ölkənin sosial problemlərinin həllinə daha çox diqqət ayırır. Hər zaman həssas əhali qruplarına qayğı ilə yanaşır, onların sosial ehtiyaclarının ödənilməsi üçün müxtəlif təşəbbüslər irəli sürür. Mehriban xanımın təşəbbüsü ilə dövlət, milli, dini bayramlarda, dövlətimiz üçün digər əlamətdar günlərdə onlara sovqatlar, hədiyyələr göndərilir. Xüsusilə şəhid ailələrinin və qazilərin, demək olar ki, bütün problemlərinin həllinə şəxsən dəstək olur, evlə, avtomobillə təmin olunmalarında yaxından iştirak edir. Həmçinin biz şahidi oluruq ki, Mehriban xanıma səhhəti, təhsili və digər sosial problemləri ilə yüzlərlə insan müraciət edir. Bütün bunlara dərhal reaksiya verilir, qarşılaşdıqları problemlərin həlli istiqamətində müvafiq tədbirlər görülür.**

Pandemiya ilə əlaqədar ölkəmizdə tətbiq edilən sərt karantin dövründə də Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu, həmişə olduğu kimi, yenə də öndə idi. Bütün sosial layihələrin icrasında, demək olar ki, Fondun adı keçirdi. Körpələr və uşaq evləri, internat məktəbləri, Uşaq Psixonevroloji Mərkəzi, bütün sosial xidmət müəssisələri, o cümlədən pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsi belə koronavirusla mübarizə tədbirləri çərçivəsində dezinfeksiyaedici vasitələrlə, maskalar, digər qoruyucu vasitələr və zəruri ehtiyaclarla mütəmadi təmin edildi. Hamıya məlumdur ki, Azərbaycan COVID-19 virusu ilə mübarizədə nümunəvi ölkə olaraq bütün dünya dövlətləri tərəfindən təqdir olundu. Bu barədə hətta beynəlxalq təşkilatların iclaslarında da söz açıldı. Bu uğurlarda Heydər Əliyev Fondunun və onun rəhbəri Mehriban xanımın da xidmətləri danılmazdır".



**"Ölkə gənclərinin yüksək səviyyədə təhsil alması, müasir elmlərə yiyələnməsi, savadlı, bilikli gənclərimizin sayının artırılması üçün davamlı olaraq Mehriban xanımın təşəbbüsü ilə müəyyən proqramlar və layihələr icra olunur. Bu sahədə "Yeniləşən Azərbaycana yeni məktəb" proqramını xüsusi qeyd etmək istərdim. Bu proqram çərçivəsində üç mindən çox məktəb müasir tələblərə uyğun olaraq əsaslı təmir olunub və ya yenidən tikilib, lazımi invertarlarla təmin olunub, gənclərin normal mühitdə təhsil alması üçün hər cür şərait yaradılıb. Bundan başqa, "İnternat məktəblərinin inkişaf proqramı", "Təhsilə dəstək" kimi proqramların icrası da uğurla icra olunub ki, bütün bunlar dövlətin təhsil siyasətinin reallaşmasında müstəsna əhəmiyyətə malikdir. Tədris prosesində əlverişli şəraitin yaradılması, təhsilin keyfiyyətinin yaxşılaşdırılması son illər Azərbaycan təhsilinin beynəlxalq təhsil məkanına inteqrasiyasını gücləndirib və beynəlxalq fənn olimpiadalarında Azərbaycan məktəblisinin uğurlarının əsas təminatçısı olub", - deyə deputat əlavə edib.**

"Bu gün Azərbaycan dünyada həm də idman ölkəsi kimi tanınır. Gənclərin sağlam şəraitdə böyüməsi, pis vərdişlərdən uzaq olması, ümumiyyətlə, ölkədə bədən tərbiyəsinin hərtərəfli inkişafı prioritet təşkil edir. Bu gün əminliklə deyə bilərik ki, dövlətimizin bütün dünyada tanınmasında, təbliğində Prezident İlham Əliyevin uğurla tətbiq etdiyi idman siyasətinin xüsusi yeri olub. Milli Olimpiya Komitəsinin və İcraiyyə Komitəsinin üzvü, həmçinin Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi Mehriban xanım Əliyeva da bu sahədə böyük işlər görüb, idman hərəkatının davamlılığına əvəzsiz töhfələr verib. Birinci Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının, Gimnastika üzrə dünya kuboku yarışlarının ölkəmizdə yüksək səviyyədə keçirilməsi məhz onun adı və yüksək təşkilatçılıq keyfiyyətləri ilə bağlıdır. Təbii ki, bu cür beynəlxalq yarışlar ölkəmizin məxsus olduğu mədəniyyətin təbliğinə, idman ölkəsi kimi beynəlxalq miqyasda tanınmasına, beləliklə, ölkəmizə böyük turist axınına səbəb olub".

**"Mehriban xanım öz fəaliyyəti ilə Azərbaycan qadınının müsbət obrazını yaradıb. O, istər ölkə həyatında, istərsə də beynəlxalq səviyyədə gördüyü nəcib və humanist işlərlə Azərbaycanı bütün dünyada uğurla təmsil edir. Bu xeyirxah əməlləri ilə Azərbaycan qadını adını ucalara qaldırıb. Onun beynəlxalq səviyyədə əldə etdiyi uğurlar həm də Azərbaycan qadınının uğurudur. Fəxarətlə deyə bilərik ki, bu gün Azərbaycan qadını UNESCO və ISESCO-nun Xoşməramlı səfiridir. Bu gün Azərbaycan qadınının təşəbbüsü ilə müsəlman ölkələrində xeyriyyə aksiyaları keçirilir, müsəlman uşaqlarının təhsili və sağlamlığı ilə bağlı davamlı layihələr reallaşdırılır, xarici ölkələrdə məktəblər tikilir. Görülən bu işlər xeyirxah və tərəqqipərvər missiyanın bütün dünya insanlarına faydalı olmaq məqsədi daşıdığını göstərir və dünya insanının savadlanmasına xidmət edir. Xeyirxahlıq, mərhəmət, insanpərvərlik nümunəsi olan Mehriban xanımın timsalında budur Azərbaycan qadınının xidmətləri", - deyə S.Möhbalıyev fikrini tamamlayıb.**

**AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi**

# Rayon və şəhər komitəsi sədrləri üçün onlayn seminar



**Avqustun 25-də Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı ilə onlayn seminar keçirilib. Seminarda Respublika Komitəsinin xidmətinə daxil olan şəhər, rayon komitəsi sədrləri iştirak edib. Tədbiri giriş sözü ilə Respublika Komitəsi sədrinin müavini Mirzə Cəfərzadə açıb.**

Deyib ki, İttifaqın nizamnaməsinə uyğun olaraq 2022-ci ildə üzv təşkilatlarda hesabat-seçkilərin keçirilməsi nəzərdə tutulmuşdur. Bütün şəhər, rayon və rayon hüquqlu həmkarlar ittifaqı komitələri seçkilərə hazırlıq işləri görməli, seçkilərin nizamnamənin tələblərinə uyğun keçirilməsini təmin etməlidirlər. Rayon komitəsi sədrləri ittifaq üzvlərindən daxil olan müraciətlərə həssas yanaşmalı, qəbula gələn şəxsləri narahat edən məsələləri ciddi şəkildə araşdırmalıdırlar.

Respublika Komitəsinin təşkilat şöbəsinin müdiri Emil Rüstəmov çıxış edərək bildirib ki, yeni işə qəbul edilən təhsil işçilərinin ittifaqa cəlb olunması ilə əlaqədar rayon komitələri iş aparmalıdır. Buna nail olmaqdan ötrü onlara ittifaq üzvü olmağın üstünlükləri barədə məlumat verməlidir. Yeni üzvlərin qəbul edilməsi, üzvlük ərizələrinin alınması, üzvlərin anketlərinin tərtib edilməsi Respublika Komitəsinin tövsiyələrinə uyğun aparılmalıdır.

**Tədbirdə çıxış edən Respublika Komitəsinin katibi, Əməkhaqqı və sosial müdafiə şöbəsinin müdiri Zəfər Məmmədov Təhsil Nazirliyi ilə bağlanmış "2021-2023-cü illər üçün kollektiv saziş"də əksini tapan müddəalardan bəhs edib. Bildirib ki, yeni kollektiv saziş əsasında şəhər, rayon komitələri ilə rayon və şəhər təhsil idarələri və şöbələrinin direktorları arasında, eləcə də ilk təşkilat sədrləri ilə müəssisə rəhbərləri arasında kollektiv müqavilə bu ilin sentyabrın 20-nə qədər imzalanmalıdır. Z.Məmmədov qeyd edib ki, kollektiv müqavilələr bağlanarkən kollektiv sazişdə öz əksini tapan müddəalara istinad olunmalıdır.**

Sonra tədbirdə Respublika Komitəsinin katibi, maliyyə şöbəsinin müdiri Mübariz Eyvazov çıxış edərək xatırladıb ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq qərarına uyğun olaraq sentyabrın 1-dən müalicə-sağlamlıq və istirahət mərkəzlərinə göndəriş alan şəxslərdən COVID-19 pasportu tələb olunacaqdır. O qeyd edib ki, təşkilat sədrləri müalicə-sağlamlıq və istirahət mərkəzlərinə göndəriş alan şəxsləri bu barədə məlumatlandırmalıdırlar.

**Tədbirin sonunda rayon və şəhər komitəsi sədrləri çıxış edərək müzakirə olunan məsələlərlə bağlı fikirlərini bildirmişlər.**

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Möhbalıyevə

**Hörmətli Səttar müəllim,**

**Mən ailəmlə birlikdə bir neçə dəfə Xaçmaz rayonunun Nabran qəsəbəsində yerləşən "Təhsil" İstirahət Mərkəzində dincəlmişəm. Buradakı şəraitdən həmişə razı qalmışıq. Bu il isə COVID-19 pandemiyasının yaratdığı fəsadlardan sonra orada istirahət etməyə bir qədər tərəddüd edirdim. Buna baxmayaraq, yenə də dincəlməyə qərar verdik. İstirahət mərkəzinin ərazisinə daxil olduqda isə narahatlığımıza son qoyuldu. Tamamilə başqa mənzərə ilə qarşılaşdıq. Ərazi büsbütün abad, güllü-çiçəkli, hovuzlar, idman meydançaları təmiz, otaqlar yaraşıqlı və səliqəli idi. Xidmət və keyfiyyətə isə söz ola bilməzdi. Ailəmiz bu dəfə də razı qaldı. Gördüklərimi, təəssüratlarımı Sizə yazmağı özümə borc bildim.**

Əlbəttə, bütün bunlar Sizin təşəbbüsünüzdən, diqqətinizdən, idarəçilik qabiliyyətinizdən birbaşa qaynaqlanır. "Təhsil" İstirahət Mərkəzinin əməkdaşlarına da minnətdarlığımı bildirirəm. Yaradılan bu şəratiə görə isə Sizə təşəkkür edirəm.

**Malik QULİYEV,**
**Azərbaycan Milli Konservatoriyasının prorektoru, professor, "Əməkdar müəllim"**

*Həmkarlar ittifaqı-əvəzsiz təcrübə məktəbi*

# İnsanların müdafiəyə ehtiyacı var

**Müsahibimiz Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Təşkilat işi və hüquq şöbəsinin müdiri Vüsal Məmmədovdur. Qeyd edək ki, Vüsal müəllim bu yaxınlarda Vəkillər Kollegiyası üzvlüyünə qəbulla bağlı ixtisas imtahanında müvəffəqiyyət qazanıb. Dediyi kimi, imtahan prosesinin üç mərhələsini uğurla başa vurduqdan sonra vəkil olaraq and içib. Daha bir məsuliyyətli peşənin, vəkilliyin ağırlığını öz çiyninə götürüb.**



V.Məmmədov Bakı Dövlət Universitetinin hüquq fakültəsini əyani bitirib. Vəkilliyi necə seçməsi barədə bizimlə təəssüratını bölüşən müsahibimiz deyib: "Həmkarlar ittifaqında uzunmüddətli iş fəaliyyətim zamanı qarşılaşdığım bir sıra məqamlar, işçilərin əmək, sosial və sair hüquq pozuntuları ilə bağlı bizə müraciəti mənim bu peşəni seçməyimdə mühüm rol oynayıb. Təbii ki, hüquqşünas olaraq, qanunvericiliyi bilən bir şəxs kimi, daxil olan müraciətləri araşdırırdım, təhlillər aparırdım. Və nəhayət, qərara aldım ki, insanların müdafiəyə ehtiyacı var və mən bunu etməliyəm. Eyni zamanda bu sahədə həm Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinə, həm də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına xidmət edərək istədiyimiz nailiyyətləri əldə edə bilərik.

Məqsəd bu oldu və mən bu hədəfə doğru addım atdım. Öncə qeyd edim ki, hüquq üzrə ali təhsili olan və bununla bağlı müəyyən sahədə 3 il staja malik şəxs Vəkillər Kollegiyasının üzvü ola bilər. Bu, əsas iş yerinə də heç bir maneçilik törətmir. Yalnız dövlət qurumlarında çalışan şəxslər istisna təşkil edir. Başqa digər sahələrdə, məsələn, həmkarlar ittifaqlarında işləyən vəkillər məhkəmə prosesinin bütün mərhələlərində sərbəst iştirak edə bilirlər. Bu həm də təcrübə baxımdan əhəmiyyətlidir. Həmkarlar ittifaqında çalışmağım mənim həm də əmək qanunvericiliyi sahəsində biliyimi zənginləşdirməkdə mühüm rol oynayır.

**V. Məmmədov bildirib ki, vəkillər qanunvericilik aktlarının tələblərinə, vəkillərin davranış qaydaları haqqında Əsasnaməyə, vəkil etikası normalarına, onlara müraciət etmiş şəxslərə münasibətdə vicdanlı və nəzakətli davranışa riayət etməlidirlər. Ölkəmizdə vəkilliyin inkişafı ilə mühüm islahatlar həyata keçirilir. Bütün bu addımlar isə Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsində təsbit olunan, hər kəsin yüksəkkeyfiyyətli hüquqi yardım almaq hüququnun təmin olunmasına yönəlmişdir. Qeyd edilən konstitusiya hüququnun təmin olunması üçün güclü və nüfuzlu vəkilliyin olması şərtdir.**

**Müsahibəni apardı:**
**Azər MUSTAFAYEV**

# Sahə üzrə aktual məsələlər nəzərdən keçirildi



**Avqustun 11-də Gürcüstanın Borjomi şəhərində Dəmiryolçuların Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası Şurasının 60-cı iclası keçirilib.**

İclasda 9 ölkənin - Azərbaycan, Ermənistan, Belarus, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Ukrayna həmkarlar ittifaqlarının nümayəndə heyətləri iştirak edib. Moldova, Litva, Özbəkistan və Estoniya həmkarlar ittifaqları isə tədbirə videogörüntü vasitəsilə qatılıb.

**İclasda təşkilati məsələyə baxılıb. N.A.Nikiforovun Şuranın sədri və üzvü səlahiyyətlərinə xitam verilib. Bu vəzifəyə Rusiya Dəmiryolçuları və Nəqliyyat İnşaatçılarının Həmkarlar İttifaqının sədri S. İ.Çernoqayev seçilib.**

Tədbirdə sahə işçilərinin sosial-iqtisadi vəziyyəti, əmək münasibətlərinə pandemiyanın təsirinin aradan qaldırılması üzrə atılan addımlar, dəmiryolçuların real əməkhaqqının artmasının təmin edilməsi, üzv təşkilatlarda bağlanmış sahə sazişləri və kollektiv müqavilələr və onların nəticələri məsələləri nəzərdən keçirildi.

**Sahədə mövcud olan digər problemlər də müzakirə edilib.**

Şuranın Avropa Nəqliyyatçılar Federasiyası ilə birlikdə MDB və Avropa İttifaqı ölkələrinin dəmir yollarında qatar briqadalarının əmək şəraitinin müayinəsinin keçirilməsi haqqında qərar qəbul edilib.

**İclasda Azərbaycan Dəmiryolçularının Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsi sədrinin müavini Samir Böyükzadə də iştirak edib.**

# Təşəkkürnamə ilə mükafatlandırıldı



**Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Xəzər Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi Antalya Azərbaycan Kültür və Dayanışma Dərnəyi tərəfindən təltif edilib.**

Qeyd edək ki, kitabxana ilin əvvəllərindən Antalya Azərbaycan Mədəniyyəti və Həmrəyliyi Təşkilatı ilə bir çox işlər görüb, hər iki ölkədə cəmiyyətin bütün təbəqələri arasında Azərbaycanın tanıdılması istiqamətində müxtəlif tədbirlər, telekörpü və virtual səyahətlər həyata keçirib.

44 günlük Vətən müharibəsində qəhrəmanlıq göstərərək tariximizin Zəfər salnaməsini yazan şəhid və qazilərimiz haqqında məlumatlar, milli maddi və qeyri-maddi mədəni irsimizin saxlancı olan muzeylərimiz və abidələrimiz, tədqiqatçı alimlərin, ədəbi düşüncə sahiblərinin fikir mübadiləsi və s. bir-birindən maraqlı tədbirlər birgə əməkdaşlıq çərçivəsində izləyicilərə təqdim olunub.

Bu layihələr təqdirəlayiq hesab edilərək təşəkkürnamə ilə mükafatlandırılıb.

**Xəzər Rayon MKS-nin kollektivini uğurlu və məqsədyönlü fəaliyyətləri münasibətilə təbrik edir və yeni-yeni müvəffəqiyyətlər arzulayırıq.**

# AHİK özünüməşğulluq proqramının icrasında yaxından iştirak edir



**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK), ölkənin ən böyük ictimai təşkilatı olaraq, sosial layihələrin icrasında yaxından iştirak edir, istər Birinci Qarabağ müharibəsi, istər Vətən müharibəsi, istərsə də Aprel və Tovuz döyüşləri zamanı şəhid olmuş qəhrəman oğullarımızın ailələrinin, qazilərin, veteranların, həmçinin həssas əhali qrupuna aid edilən ailələrin sosial və digər problemlərinin həlli istiqamətində müvafiq addımlar atır.**

Əhalinin məşğulluğunun təmin olunması, yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması dövlətimizin sosial siyasətinin mühüm tərkib hissəsidir. Bu məqsədlə aztəminatlı ailələrin aktiv əməyə cəlb edilməsinə, məşğulluğunun təmin olunmasına xüsusi diqqət yetirilir. Bu prosesin reallaşdırılması istiqamətində də AHİK və üzv təşkilatları xüsusi fəallığı ilə seçilir.

Qeyd edək ki, 2 mart 2021-ci il tarixində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə AHİK arasında həssas əhali qruplarının özünüməşğulluğunun təşkilinə köməklik göstərilməsi ilə bağlı əməkdaşlığa dair memorandum imzalanıb. Sənədin icrası ilə əlaqədar AHİK tərəfindən ölkəmizdə özünüməşğulluğun təşkilinə köməklik göstərilməsi üçün 200 000 manat ayrılıb.

**Ötən dövr ərzində bu məqsədlə yaradılmış AHİK-in əlaqələndirmə qrupu həssas əhali qruplarının, o cümlədən əsasən Qarabağ müharibəsi qaziləri və iştirakçılarının özünüməşğulluğunun təmin olunması üçün aktivlərin (avtoyuma obyekti üçün köpük-maye püskürmə aparatı, yuma aparatı və s., fotostudiya üçün fotolampa, işıqlandırma qurğusu, kamera, fotonu çap edən qurğu, Noutbuk və s., avtotəmir obyekti üçün, nəqliyyat vasitəsini qaldırmaq üçün elektrohidravlik qaldırıcı qurğu, hava kompressoru və s.) alınıb təqdim olunması tədbirlərinə qatılıb.**

Belə ki, AHİK-in əlaqələndirmə qrupu Sumqayıt şəhərində Qarabağ müharibəsi qaziləri - Camal Alxasova avtotəmizləmə xidmətləri üçün, Pərvin Rzayevə dönərçi üçün, Buzovna qəsəbəsində Vətən müharibəsində yaralanmış Fərrux Əliyevə avtotəmizləmə xidmətləri üçün, Bakı şəhəri, Nəsimi rayonunda müharibə iştirakçısı Ələsgər Salmanova kiçik fotoatelye üçün, Qaradağ rayonu, Sahil qəsəbəsində Qarabağ müharibəsi qazisi Cavid Hüseynova avtoçilingər xidmətləri üçün alınmış aktivlərin təqdim olunması tədbirlərində iştirak edib.

**AHİK və üzv təşkilatları bu cür layihələrin reallaşması istiqamətində səylə çalışır, dövlətimizin bu istiqamətdə həyata keçirdiyi bütün tədbirləri dəstəkləyir və bu missiya bundan sonra da tərəfimizdən uğurla davam etdiriləcək.**

# Gənclərimiz hər cür diqqətə layiqdir




**"Biz gənclərimizi əsl vətənpərvər vətəndaş kimi formalaşdırmağı qarşımıza məqsəd qoymuşuq. Bu istiqamətdə müxtəlifçeşidli tədbirlər görürük. İnamla qeyd edə bilərik ki, bu istəyimizə nail də oluruq". Bu sözləri Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Şəki Rayon Komitəsinin sədri Rəhman Məmmədov Beynəlxalq Gənclər Gününə həsr olunmuş videokonfransda söylədi. Dedi ki, dövlətimizin yeritdiyi, həmkarlar ittifaqının dəstəklədiyi gənclər siyasəti öz nəticəsini, el dili ilə desək, bəhrəsini 44 günlük Vətən müharibəsində parlaq şəkildə göstərdi. Gənclərimiz, öz canı və qanı bahasına, düşmənin 30 ilə yaxın bir müddətdə Qarabağımızda qurduğu möhkəm istehkamları yararaq torpaq bütövlüyümüzü təmin etdilər.**

Rəhman müəllim dedi ki, biz, həmkarlar ittifaqı olaraq, gənclərimizi həmişə diqqət mərkəzində saxlamışıq. Əmək, sosial, istirahət hüquqlarının qorunması üçün səylərimizi əsirgəməmişik. Onların zərərli vərdişlərə cəlb olunmasının qarşısını almaqdan ötrü ilboyu maarifləndirici tədbirlər həyata keçirmişik. Şəhidlərimizin ailələrinə, qazilərimizə qayğı göstərməyi müqəddəs borcumuz sayırıq.

**R.Məmmədov çıxışında Beynəlxalq Gənclər Gününün yaranma tarixi barədə də qısa məlumat verdi. Bildirdi ki, 1998-ci il avqustun 12-də Lissabonda gənclərlə iş üzrə nazirlərin iştirakı ilə keçirilmiş beynəlxalq konfransda hər il avqustun 12-nin Beynəlxalq Gənclər Günü kimi qeyd olunması qərara alınıb. Bu əlamətdar gün gənclərə lazımi diqqət göstərmək, onların nailiyyətlərini təbliğ etmək, cəmiyyətin bütün sahələrində gənclərin iştirakına təkan vermək məqsədilə qeyd olunur. Konfransda Şəki Gənclər İdman İdarəsinin rəisi Daşqın Mikayılov, MİHİ Şəki Rayon Komitəsinin təlimatçısı və gənclərlə iş üzrə komissiyanın sədri Nəzakət Əliyeva, Şəki şəhər Heydər Əliyev Mərkəzinin bələdçisi Xuraman Səmədova və əməyin mühafizə komissiyasının sədri Rövzət Hacızəkəryəyev də çıxış etdilər. Bildirdilər ki, gənclərimizin bir fərd, əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında ümummilli lider Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri var. Ulu öndər Heydər Əliyev ölkədə gənclər siyasətinin düzgün aparılmasını çox vacib və önəmli hesab edərək söyləyirdi: "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycan gəncləridir". Ulu Öndərin gənclər siyasəti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilir.**

# Şəhidlik zirvəsinin fatehləri

## "Qardaşımın oğlu olsa, adını Fədail qoyarsınız..."



**Qardaşı onu hərbi hissəyə aparan zaman Fədail yolda maşını saxlatdıraraq rəqs edir və deyir: "Bu videonu saxla, vaxt gələcək, ən məşhur videolardan olacaq". Elə dediyi kimi də olur: bu videonun sosial şəbəkələrdə yayılması ilə Fədail hər kəsin diqqət mərkəzinə düşür...**

Fədail Nadirov 1999-cu il iyulun 23-də Qobustanın Bədəlli kəndində doğulub. Məktəb vaxtlarından ağır atletika ilə məşğul olan Fədail rayonda keçirilən yarışlarda 1-ci və 2-ci yerləri də tutub. 2017-ci ildə hərbi xidmətə yollanıb. Yeni azad olunan Lələtəpə yüksəkliyində düşmənlə üzbəüz duraraq xidməti vəzifəsini layiqincə yerinə yetirib. Əsgərlikdən qayıtdıqdan sonra bir müddət mühafizə xidmətində çalışıb. 2020-ci ilin iyulunda isə "N" saylı hərbi hissədə Müddətdən Artıq Xidmət Edən Hərbi Qulluqçu (MAXE) kimi fəaliyyətə başlayıb.

**2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsinə qoşulan igidlərdən olan Fədail hərbi vəzifəsini mükəmməl bildiyi üçün kəşfiyyat taboruna seçilir. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə onun silahdaşları mühasirəyə düşür. Məhz Fədailin qəhrəmanlığı sayəsində mühasirədən çıxa bilirlər. Qubadlı uğrunda döyüşlərdə qolundan yaralansa da, yenidən döyüşə davam edir. Qırmızı Bazarda silahdaşları ilə birgə 3 gün dayanmadan vuruşur. Döyüş yoldaşlarının dediyinə görə, Fədail heç bir yaralını, şəhidi geridə qoymurmuş.**

Oktyabrın 24-də evə zəng edərək anasına son sözü "qardaşımın oğlu olsa, adını Fədail qoyarsınız" olur.

Fədail oktyabrın 26-da tabor komandiri ilə birgə Füzulinin 40 metr adlanan ərazisində ermənilərə məxsus bunkeri məhv edərkən qəhrəmancasına şəhid olub. Onun cənazəsi böyük izdihamla qarşılanaraq oktyabrın 27-də doğulduğu Bədəlli kəndində dəfn edilib.

**Prezident İlham Əliyevin Sərəncamı ilə Fədail Fərhad oğlu Nadirov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.**

## Oğlunun da atası kimi hərbçi olacağını ümid edir



**"Döyüşlərin başlamasından bir gün əvvəl gecə mənə zəng etdi və dedi ki, "Nərmin, mənə təcili kontur göndər, dağa çıxacağam. Lakin mənə müharibə ilə əlaqədar heç nə demədi".**

Bu sözləri II Qarabağ müharibəsi şəhidi Şəhriyar Ağamalıyevin həyat yoldaşı Nərminə Ağamalıyeva deyib. Onun haqqında danışarkən N.Ağamalıyeva bildirib ki, Şəhriyar ixtisasca şərqşünas olsa da, özü könüllü olaraq hərbi sahəyə yönəlib: "2017-ci ilin may ayında ona zabitlik kurslarının başlaması ilə bağlı bildiriş gəldi. Çünki onun özü könüllü buraya müraciət etmişdi. O, zabitlik kursunu bitirən kimi ilk təyinatı Goranboy rayonuna verildi. Təxminən 2-3 aydan sonra isə kəşfiyyatçı kimi Tərtərdəki xüsusi təyinatlı briqadaya təyinat aldı. Daha sonra isə kəşfiyyatçı kimi yenidən Goranboydakı hərbi hissəyə qayıtdı. Şəhriyar sanki hərb üçün yaranmışdı. Həftə sonları evə gələndə danışardı, biz də sevərək onu dinləyərdik.

Döyüşlərin başlamasından bir gün əvvəl gecə mənə zəng etdi və ona kontur göndərməyimi istədi. Konturu vaxt tapdıqca mənimlə əlaqə saxlamaq üçün istədiyini dedi, ancaq müharibə ilə bağlı bir kəlmə belə demədi".

Müharibə başladıqdan bir gün sonra-sentyabrın 28-i Şəhriyarın ad günü idi. O, valideynləri ilə danışan zaman atasına deyib ki, "ad günümdə 7-8 erməni öldürmüşəm".

**Nərmin xanım Şəhriyarın Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etdiyini bildirdi: "Təxminən müharibə başladıqdan 2-3 gün sonra mənimlə əlaqə saxladı və kefimizi, əhvalımızı soruşdu. Şəhriyar taqım komandiri kimi döyüş tapşırığını mükəmməl yerinə yetirdiyi üçün rütbəsini artırmadan ona bölük komandiri vəzifəsi verilmişdi".**

Şəhriyar oktyabrın 30-da Suqovuşan uğrunda gedən döyüşdə Şəhidlik zirvəsinə ucalıb. Hacıqabul rayonunun Şəhidlər xiyabanında dəfn olunub.

Prezident İlham Əliyevin Sərəncamı ilə Şəhriyar Əvəz oğlu Ağamalıyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Şəhidin həyat yoldaşı oğlunun da atası kimi hərbçi olacağını ümid edir: "Oğlunun adını "Quran"dan özü seçmişdi və İmran qoymuşdu. Qızının adı üçün isə demişdi ki, gələrəm, birlikdə qərar verərik, amma qismət olmadı. Mən qız övladımızın adını Şəhriyarın adına uyğun Şəhrinur qoydum, yəni "Şəhriyarın nuru". Oğlumun hərbi pilot, qızımın isə hərbi həkim olmağını istəyərəm. Çalışacam ki, onun adsanına layiq övladlar yetişdirim".

**Qeyd edək ki, Ş.Ağamalıyevin əmisi Ağamalıyev Daşqın 1-ci Qarabağ müharibəsində 31 yaşında, yəni Şəhriyarla eyni yaşda şəhid olub.**

## *"Mən onu ali təhsilli, yüksək kürsülərdə görməyi arzulayırdım*

### Sən demə, ona daha yüksək məqam qismət imiş..."



**Torpaqlarımızın ərazi bütövlüyü uğrunda canından keçən, Vətən uğrunda şəhid olmağı özünə şərəf bilən şücaətli Azərbaycan oğullarından biri də şəhid Nicat Ziyafət oğlu Hüseynovdur.**

Nicat Hüseynov 1997-ci il iyunun 4-də Şirvan şəhərində anadan olub. 2003-cü ildə Şirvan şəhər Nofəl Quliyev adına 9 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olub, 2014-cü ildə Bəhruz Aslanov adına tam orta məktəbin 11-ci sinfini bitirib. 2015-ci ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şirvan Şəhər Şöbəsi tərəfindən Silahlı Qüvvələrə həqiqi hərbi xidmətə çağırılıb. Ağdamda yerləşən "N" saylı hərbi hissədə hərbi xidmət borcunu ləyaqətlə yerinə yetirib. Bu müddətdə snayper kursunu bitirən Nicat Aprel döyüşlərinin könüllü iştirakçısı olub və yüngül xəsarət alıb. Hərbi xidmətini başa vurduqdan sonra Müdafiə Nazirliyinin Araz zavodunun Təhlükəsizlik və mühafizə idarəsində böyük atıcı işləyib.

**Vətən müharibəsinin ilk günlərindən cəbhəyə yollanıb. Son dəfə evdən çıxarkən "şəhid olsam, ağlamayın, məni atamın bayrağına bükərsiniz" deyən Nicatın torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşmək və şəhidlərin qisasını almaq ən böyük arzusu idi. Mərdliyi, cəsarəti, döyüş tapşırıqlarını dəqiqliklə yerinə yetirmək xüsusiyyəti qısa müddətdə komandanlığın diqqətini çəkib və Nicatın bölük komandiri seçilməsinə səbəb olub. Füzuli rayonunun Qaraxanbəyli kəndi uğrunda gedən döyüşlərdə xüsusi qəhrəmanlıq göstərərək 15 yaralı əsgəri neytral zonadan çıxarıb, 16-cı döyüş yoldaşını xilas edərkən qəhrəmancasına şəhid olub.**

Nicat oktyabrın 11-də Şirvan şəhər Şəhidlər xiyabanında dəfn edilib.

Nicat Ziyafət oğlu Hüseynov ölümündən sonra Prezident İlham Əliyevin Sərəncamına əsasən, "Vətən uğrunda" medalı ilə təltif edilib.

Atası Ziyafət Hüseynov Nicatın ölümündən bir neçə ay əvvəl dünyasını dəyişib. Anası Zümrüd xanım, bacıları Turanə, Çinarə Nicatın ölümü ilə barışa bilməsələr də, onunla bağlı xatirələrini danışmaqdan yorulmurlar. Anası deyir ki, Nicat iki dəfə ali məktəbə qəbul olmaq üçün sənəd versə də, imtahan günü ailədə yas mərasimi olduğu üçün imtahanda iştirak edə bilməyib: "Mən onu ali təhsilli, yüksək kürsülərdə görməyi arzulayırdım. Sən demə, ona daha yüksək məqam qismət imiş..."

"Bacıları ailəli idi. Hər il 8 martda, ad günlərində gül dəstəsi, hədiyyə alıb məni, bacılarını sevindirərdi. Hətta cəbhəyə getməzdən əvvəl atasının məzar daşının, evin küçə qapısının düzəldilməsi üçün ustaların haqqını vermişdi. Demişdi, mən gələnə qədər hazır olsun. İndi hər şey hazırdı, bir Nicat yoxdu",-anası Zümrüd xanım deyir.

**Nicatın xilas etdiyi keçmiş döyüş yoldaşları onun məzarını ziyarət edərək "sən bizim xilaskarımızsan, sənə görə sağ-salamatıq və ömür boyu sənə borcluyuq" deyirlər.**

## *Ən böyük arzusu "Yetim" adı qoyduğu tankı ilə Azadlıq meydanında Zəfər paradından keçmək idi*



**Baş leytenant Əlimərdan Fəttah oğlu Quluzadə 1993-cü il fevralın 14-də Masallı rayonunun Birinci Yeddioymaq kəndində anadan olub. Kənddə ibtidai sinfi bitirəndən sonra orta təhsilini Sumqayıt şəhərində 5 saylı tam orta məktəbdə davam etdirib. Yeniyetmə vaxtlarından hərb sənətinə marağı olan Əlimərdan 2008-2011-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə və 2011-2015-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alaraq leytenant rütbəsi ilə Silahlı Qüvvələrin Quru Qoşunlarında xidmətə başlayıb. Müşfiq qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə Vətənə xidmət borcunu şərəflə yerinə yetirib.**

23 yaşlı leytenant Əlimərdan Quluzadə Aprel döyüşlərində iştirak edərək düşmənə məxsus neçə-neçə hərbi texnikanı, artilleriya qurğusunu, o cümlədən canlı qüvvəsini məhv edərək mətinlik göstərib, düşməni strateji yüksəkliklərdən geri çəkilməyə məcbur etmişdi. Döyüş və ictimai-siyasi hazırlıqda fərqləndiyinə görə Fəxri Fərmanla təltif olunub.

Əlimərdan 2018-ci ildə baş leytenant hərbi rütbəsinə layiq görülmüşdür.

Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsinə peşəkar tank komandiri kimi qatılan Ə.Quluzadə öz ekipajı ilə cəbhənin ön hissəsində döyüşüb. Qəlbi böyük qələbə eşqi ilə döyünən Əlimərdan son dəfə Fuad adlı dostuna zəng edərək Füzulidə azad etdikləri torpaqlara Zəfər bayrağı sancdıqlarının müjdəsini verib. Oktyabrın 6-da şiddətli döyüşlər davam etdiyi vaxt baş leytenant Ə.Quluzadə qəhrəmancasına şəhid olur. Oktyabrın 8-də onun Azərbaycan bayrağına bükülmüş tabutu böyük izdihamla Masallı rayonunun Birinci Yeddioymaq kənd qəbiristanlığında torpağa tapşırıldı.

Prezident İlham Əliyevin Sərəncamı ilə baş leytenant Əlimərdan Quluzadə ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

**Sumqayıtda yaşadığı 15 il ərzində tanış-bilişləri bir-birinə zarafatla "yetim" deyə xitab edərdi. Əlimərdan da döyüşlərdə tankının lüləsinə ağ rənglə "Yetim" sözü yazmışdı. Elə ən böyük arzusu da "Yetim" adı qoyduğu tankı ilə Azadlıq meydanında Zəfər paradından keçmək idi.**

Müharibə başlanandan iki gün sonra kiçik qardaşı Həmid də onun ardınca könüllü olaraq cəbhəyə yollanmışdı. Bir-birindən ayrı cəbhələrdə döyüşsələr də, Əlimərdan qardaşına zəng edərək onu işğalçı düşmənlə mübarizəyə ruhlandırıb deyir: "Bütün torpaqlarımızı azad edəcəyik, mən sənin, sən də mənim arxamda olacaqsan!.."

Komandiri olduğu tankın ekipajı ilə ermənilərə divan tutan Əlimərdan bir neçə dəfə yaralı yoldaşlarını döyüş meydanından çıxararaq tibbi yardım məntəqəsinə də çatdırmışdı. Silahdaşlarının xatirəsinə istinad edərək atası Fəttah kişi deyir ki, döyüşlərdə Əlimərdan həmişə irəli can atıb, yoldaşlarına ürək-dirək verib: "Qorxmayın, baxın görün, düşmən bizim qabağımızdan necə qaçır? Biz qələbə çalacağıq. Ermənilərdən bütün şəhidlərimizin qisasını alacağıq".

**Əmisi Almaz Quluyev deyir ki, Vətən müharibəsindən bir az əvvəl Əlimərdan məzuniyyətə gələndə bütün qohum-əqrəbası ilə bir-bir görüşüb: "Hətta bir gündə iki-üç qohumunun evinə baş çəkirdi. Elə bil şəhid olacağı ona agah olmuşdu və doğmaları ilə vidalaşmağa gəlmişdi".**

## Şəhid Emil Balaqardaş oğlu Əsədov



**Emil Balaqardaş oğlu Əsədov 1998-ci il yanvarın 11-də Salyan rayonunun Çuxanlı kəndində anadan olub. 2004-2012-ci illərdə Z.Həmidov adına Çuxanlı kənd orta məktəbində, 2012-2015-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. Ali hərbi təhsilini isə 2015-2019-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində "Motoatıcı" ixtisası üzrə alıb.**

Emil hərbi xidmətinə 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin Qusar rayonunda "N" saylı hərbi hissədə "leytenant" hərbi rütbəsi ilə başlayıb. Sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində taqım komandiri olaraq Hadrutun, Füzulinin, Qubadlının, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Döyüşlər zamanı Ermənistan ordusunun 90-dan çox canlı qüvvəsini və 14 texnikasını məhv edib, bir neçə dəfə silah yoldaşlarını mühasirədən çıxarıb, buna görə də "Qaya 11" ləqəbini qazanıb. Döyüşlər zamanı yaralanıb, hospitala təxliyə olunsa da, bir müddət sonra yenidən döyüş meydanına qayıdıb. Noyabrın 8-də isə Xocavənd döyüşləri zamanı şəhid olub.

Emil Əsədov Salyan rayonunda dəfn olunub.

**Emil Balaqardaş oğlu Əsədov Prezidentin Sərəncamı ilə "Qarabağ" ordeni, "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.**

## Şəhid Hilal Sabir oğlu İmanzadə

**Hilal Sabir oğlu İmanzadə 1995-ci il dekabrın 23-də Beyləqan rayonunun Mil qəsəbəsində anadan olub. 2013-2015-ci illərdə Silahlı Qüvvələrin Sərhəd Qoşunlarının "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2015-ci ildən Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olub. O həmçinin Türkiyədə snayper kursunda da yüksək nailiyyət qazanıb.**

DİN-in Daxili Qoşunlarının çavuşu olan H.İmanzadə 2020-ci il sentyabrın 27-də erməni işğalı altında olan torpaqlarımızın azadlığı uğrunda başlayan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzulidə gedən ağır döyüşlərdə savaşıb. Oktyabrın 1-də elə Füzuli döyüşləri zamanı da Şəhidlik zirvəsinə ucalıb.

Beyləqan rayonunda dəfn olunub.



**Prezident İlham Əliyevin Sərəncamına əsasən, Hilal Sabir oğlu İmanzadə ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.**

**Səhifəni hazırladı: Aliyə SƏMƏDOVA**

# Erməni təxribatlarının arxasında nə durur?


Elman Məmmədov

**Son vaxtlar Azərbaycan-Ermənistan dövlət sərhəddində erməni təxribatlarının sayının intensiv xarakter daşıdığının şahidi oluruq. Nə baş verir? Ermənilərə bu təxribatları törətməyə cəsarətləndirən nədir? Bunların arxasında hansısa qüvvələrmi dayanır? Hətta Prezident İlham Əliyev "CNN Türk" televiziya kanalına müsahibəsində rus sülhməramlı qüvvələrinin nəzarətində olan ərazilərdə yaşanan hadisələrə öz münasibətini bildirərək dedi ki, bu ərazilərə Ermənistandan silahlar və hərbçilər göndərilir. Bu, 10 noyabr üçtərəfli bəyanatına ziddir.**

**Deputat Elman Məmmədov** mövzu ilə bağlı açıqlama verərək bildirdi ki, ermənilər hər zaman olduğu kimi, bu gün də tarixi xəstəliklərindən əl çəkmək istəmirlər: "Nədir bunların tarixi xəstəlikləri? Bunlar həmişə yaşadıqları ərazilərdə qonşu dövlətlərə qarşı ərazi iddiasında olublar, "böyük Ermənistan" xəstəliyi ilə yaşayıblar. Lakin, təəssüflər olsun ki, düşdükləri vəziyyətdən, başlarına gələn fəlakətlərdən, məğlubiyyətlərdən bu gün də düzgün nəticə çıxara bilmirlər".

**Millət vəkili Arzu Nağıyev** isə dedi ki, son vaxtlar rus sülhməramlı hərbçiləri öz səlahiyyətlərinə uyğun olmayan işlərlə məşğul olurlar. Bu, Rusiya və Ermənistanın hərbi-strateji tərəfdaş olduğunu ortaya qoyur: "Prezident İlham Əliyev son müsahibəsində Rusiyanı Azərbaycanın tərəfdaşı kimi deyil, qonşusu kimi xarakterizə etdi. Bu, Rusiyanın hərbi cəhətdən mövqeyi, atdığı addımlarla bağlıdır. Hazırda Rusiya və onun sülhməramlı qüvvələri üzərinə düşən vəzifələrdən kənar işlərlə məşğul olurlar. Rusiya tərəfi başa düşməlidir ki, bu cür addımların sonu heç bir statusu olmayan erməni terrorçularına qarşı anti-terror əməliyyatına gətirib çıxara və regionda yeni münaqişənin alovlanmasına səbəb ola bilər. Sülhməramlı hərbçilər öz vəzifələrini unutmamalı və səlahiyyətləri çərçivəsində hərəkət etməlidirlər".

A.Nağıyev onu da qeyd etdi ki, Ermənistanın Azərbaycanla sərhədi qorumağa gücü çatmaz. Ermənistan tərəfi ötən ilin 10 noyabr bəyanatından sonra-dekabrdan başlayaraq davamlı təxribatlar törətməklə Rusiya qoşunlarını bu istiqamətə cəlb etməyə çalışır. Bu, ölkə daxilindəki siyasi çaxnaşmanın qarşısını almaq üçün Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) rotasiya qaydasında edəcəyi sədrlik imkanından istifadə edəcəyini bildirir. Bütün bunlar 10 noyabr bəyanatına uyğun olmayan addımlardır, yəni təxribatdır. Birmənalı şəkildə Ermənistan başa düşməlidir ki, diktə edən və qalib tərəf Azərbaycandır. Zəngəzur dəhlizi də açılacaq, sərhəddə mövqelərimiz bərpa edilib və bundan sonra da ediləcək. Bu istiqamətdə Azərbaycan Ordusu çox ciddi addımlar atacaq.

**Məsələ ilə bağlı Sosial Tədqiqatlar Mərkəzinin Daxili siyasətin təhlili departamentinin baş məsləhətçisi, politoloq İlyas Hüseynovun da fikirlərini öyrəndik: "Qeyd etmək lazımdır ki, Azərbaycan və Ermənistan arasında xüsusilə cari ilin may ayından etibarən gərginlik davam edir və bu gərginliyin yaradılmasında birbaşa olaraq Ermənistanın hərbi və siyasi rəhbərliyi məsuliyyət daşıyır. Eyni zamanda Ermənistanın əsas məqsədi budur ki, bölgəyə müasir beynəlxalq münasibətlər sisteminin güc mərkəzlərini cəlb etsin və bununla da beynəlxalq təhlükəsizlik zəmanəti qazansın. Ermənistanın baş naziri Nikol Paşinyan 20 iyun tarixində keçirilən növbədənkənar parlament seçkisi zamanı bildirmişdi ki, onların əsas məqsədləri ATƏT-in Minsk qrupunun həmsədrlik institutunu Ermənistan-Azərbaycan sərhəddinə cəmləşdirməkdir. Lakin seçkilərdə qalib gələndən sonra Paşinyan öz dediklərini təkzib etdi və bildirdi ki, onun fikirləri KTMT-nin nümayəndələrindən ibarət müşahidəçilər qrupunu Ermənistan-Azərbaycan sərhəddində toplamaq məqsədi daşıyırdı. Və bu da onu göstərir ki, Ermənistan istənilən dövləti Ermənistan-Azərbaycan sərhəddinə cəmləşdirməklə çıxış variantları axtarır. Lakin bu qüvvələrin sərhəddə cəmləşdirilməsi tamamilə absurddur. Çünki hadisələrin kökündə dayanan əsas məsələ Azərbaycanla Ermənistanın öz beynəlxalq səviyyədə tanınmış sərhədlərini müəyyənləşdirməkdən ibarətdir. Bunun yeganə çıxış yolu beynəlxalq hüquqda geniş yayılmış delimitasiya və demarkasiya prosesinin həyata keçirilməsidir. Lakin davamlı olaraq biz müşahidə edirik ki, Ermənistan bu danışıqlara etinasız yanaşır və danışıqlar masası arxasında oturmaqdan boyun qaçırır. Çünki onlar bilir ki, nəticədə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədlərini qəbul etməlidirlər və yalnız bundan sonra böyük sülh müqaviləsi haqqında danışmaq olar.**


Arzu Nağıyev

Digər tərəfdən, Ermənistanı sürətli şəkildə silahlanmaya sövq edən bəzi tərəflərin təşəbbüsləri var. Bu da regionda təhlükəsizliyə təhdid törətməklə yanaşı, sülhü və sabitliyi də təhdid altında saxlayır. Bölgədəki təhlükəsizliyi və sülhü təmin etmək üçün yeganə çıxış yolu diplomatik siyasi danışıqlar prosesinə başlamaqdır. Bununla bağlı Paşinyan öz çıxışında bildirsə də, biz onun fikirləri ilə əməlləri arasında bir bağlılıq görmürük. Çünki davamlı olaraq Laçın və Kəlbəcər ərazilərinin atəşə tutulmasını müşahidə edirik".

**İ.Hüseynov bildirdi ki, ölkəmiz qarşısında yeni geostrateji prioritetlər dayanmışdır. Belə ki, əgər Ermənistan tərəfi Azərbaycanın beynəlxalq səviyyədə müəyyən olunmuş sərhədlərini tanımaqdan imtina edərsə, o zaman Azərbaycan da öz tarixi torpaqları olan Zəngəzur, Göyçə və İrəvanı əldə etmək üçün taktiki əməli addımlar ata bilər.**

Politoloq Azərbaycan tərəfinin İrana nota verməsi, eləcə də Müdafiə Nazirliyinin Azərbaycan ərazisində müvəqqəti olaraq yerləşdirilmiş sülhməramlıların qanunsuz fəaliyyəti və bölgəyə yeni terrorçu qrupların gətirilməsi ilə bağlı məsələyə laqeyd yanaşması haqqında verilən açıqlamasına münasibət bildirərək dedi ki, bu, çox təqdirəlayiq bir yanaşmadır: "Çünki Azərbaycan ictimaiyyətində bu məsələ ilə bağlı münasibət birmənalı deyil və sülhməramlıların həyata keçirdiyi fəaliyyət-Laçın dəhlizinə səthi yanaşılması və bu sahədə nəzarətin gücləndirilməməsi bölgədə təhlükəsizliyə təhdid törətməklə yanaşı, həm də Azərbaycan vətəndaşlarına, eləcə də hərbi qulluqçularımızın sağlamlığına və təhlükəsizliyinə təhdid törədir. Ona görə də sülhməramlıların fəaliyyəti 10 noyabr tarixində imzalanmış üçtərəfli bəyanatın 4-cü maddəsinə uyğun təşkil olunmalıdır. Bu maddəyə əsasən, sülhməramlılar Azərbaycan ərazisinə erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Təəssüflər olsun ki, sülhməramlılar yerləşdirilsə də, bu ərazilərdə düşmənin silahlı qüvvələrinin tör-töküntüləri hələ də qalmaqdadır, onlar döyüş postları qurur, səngərlər, xəndəklər qazırlar. Bundan başqa, Muxtarkənd və Şuşakənd ətrafında, eyni zamanda Kəlbəcər və Laçın rayonlarının Ermənistan tərəfinin şərq istiqamətində düşmən postlarının təchiz olunması narahatedici bir məqamdır. Buna görə də artıq sülhməramlılara ciddi hüquqi mesaj verilməsi şərt idi.


İlyas Hüseynov

**Onu da qeyd edim ki, İlham Əliyevin Laçın və Kəlbəcərə, yəni şərqi Zəngəzura səfəri mühüm mesaj daşımaqla yanaşı, həm də bir tarixi səfər idi. Belə ki, bu ərazilər işğaldan azad olunduqdan sonra Prezidentin ora ilk səfəri idi. Bundan başqa, bölgədəki yenidənqurma işləri, ərazinin baş planının hazırlanması, su elektrik stansiyası, eyni zamanda aeroportun təməlinin qoyulması onu göstərir ki, Azərbaycan bölgədə davamlı olaraq formalaşır, biz öz dədə-baba torpaqlarımıza əsaslı və müasir şəhərsalma qaydalarına uyğun olaraq qayıdırıq".**

**Aliyə SƏMƏDOVA**



# Əlillik dərəcəsinin verilməsi qaydası dəyişib

**Avqustun 16-da "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanunda dəyişiklik edilməsi barədə" Prezident İlham Əliyev fərman imzalayıb. Qanuna dəyişiklik edilməsi nəticəsində əlillik dərəcəsinin verilməsi qaydası dəyişib. Qanunvericilikdə "əlilliyinin səbəbi, dərəcəsi" sözləri "orqanizminin funksiyalarının pozulması faizi, səbəbi" sözləri, "I dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri, "II dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri və "III dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilib.**

**Vətəndaşların Hüquqlarının Müdafiə Liqasının sədri Sahib Məmmədov** qanunda edilmiş yeni dəyişikliyə aydınlıq gətirdi. Dedi ki, Nazirlər Kabinetinə 2019-cu ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əlilliyin müəyyən edilməsinin yeni meyarları təqdim olunmuşdu. Onun təsdiqi üçün qanunvericilikdə müəyyən dəyişiklik olmalı idi. Burada artıq əlillik qruplarla yox, dərəcələrlə müəyyənləşəcək. Fərq nədir? Dəyişikliyə əsasən xəstəliklərin, patalogiyaların diapazonu genişlənəcək. 2015-ci ildə Nazirlər Kabinetinin qərarı ilə xəstəliklərin sayı iki dəfə azaldılaraq cəmi 250-yə salınmışdı. Məhz bunun nəticəsində də bir çox insan əlillik dərəcələrini itirmiş oldu və pensiyaları kəsildi. Ancaq indiki meyarlar üzrə təxminən 800-dən çox meyar əsasında əlillik təyini oluna biləcək. Həmçinin Ümumdünya Səhiyyə Təşkilatının, Avropa ölkələrinin standartlarında olduğu kimi, orqanizmin funksiyalarının itirilməsi faizi əsasında, əsasən özünəqulluq, səmtlənmə, qidalanma, sərbəst hərəkət etmə və sair kimi həyat fəaliyyətinin əsas istiqamətlərinin məhdudlaşma dərəcəsi nəzərə alınmaqla əlilliyin qiymətləndirilməsi aparılacaq.

**Müxbir:- (ƏƏSMN) bildirilib ki, ötən ilin sonlarından indiyə kimi təxminən 23 min şəxsə əlillik pensiyasının ödənilməsi dayandırılıb. Əlillik təyinatı üçün yenidən müraciət edənlər arasında təxmininən 16 min şəxs ya reabilitasiya olub, ya da xəstəlik vəziyyətləri əlillik qrupu təyinatı üçün əsas sayılmayıb. 190 min əlilliyi olan şəxsin isə bu il əlillik müddəti bitir və onlar əlillik qrupu üçün yenidən müraciət etməlidi. Maraqlıdır, xəstəlik vəziyyəti əlillik qrupu təyinatı üçün əsas sayılmayan, yəni əlillik pensiyası dayandırılmış şəxslərin qanundakı dəyişikliyə əsasən əlillik pensiyasının yenidən bərpası gözlənilirmi?**

S.Məmmədov:- İnanmaq çətin olsa da, bərpası çox yaxşı olardı. Çünki əlilliyin köhnə meyarlarla müəyyən olunmasında heç bir qrup üzrə pensiya almaq hüququ olmayan kriteriyaya sahib şəxslər var idi ki, bəlkə də indi onların bir qismi əlilliyi olan şəxs hesab oluna bilər. Çünki qeyd etdiyim kimi, xəstəliklərin diapazonunda xeyli sayda artım olub. S.Məmmədov bildirdi ki, əlilliyə görə əmək pensiyası hüququ olanların əlillik hüququnun dayandırılması onların həyatında çox ciddi problemlərə gətirib çıxarıb. Yeganə dolanışıq mənbəyi əlillik pensiyası olan şəxslərin maddi durumu ürəkaçan deyil. Çünki onlarla bağlı genişmiqyaslı əlavə tədbirlər görülməyib. Bu kimi səbəblərdən ümid edirdik ki, məsələ ilə bağlı amnistiya elan olunar, yəni əvvəllər hətta uyğun olmayan əlillik təyin olunubsa da, həmin şəxslər üçün müəyyən güzəştlər nəzərdə tutular, xüsusən də müharibə veteranları üçün. Baxmayaraq ki, vətəndaşların xeyrinə olaraq qanunun geriyə qüvvəsi var. Amma görünən odur ki, bu, artıq əlillik pensiyası dayandırılmış şəxslərə şamil edilməyəcək. Ona əsaslanaraq deyirəm ki, əlilliyi olan şəxslər pensiya müddəti başa çatdığı üçün təkrar yoxlamadan keçib əlillik təyinatı alana qədər aradakı aylar pensiya almaq hüququndan məhrum idilər. Lakin qanuna dəyişiklik olundu və bu məbləğin 6 ay geriyə qədər ödənilməsi zəruri hal hesab olundu. Necə ki, bu qanun qüvvəyə mindiyi gündən sonra əlillik pensiyası təyin olunan şəxslər üçündür, yəni geriyə qüvvəsi yoxdur, eləcə də növbəti dəyişikliyin.

**Millət vəkili Fazil Mustafa bildirdi ki, mövzu ilə bağlı təkliflər edildi və qanunvericilikdə dəyişiklər oldu. Lakin bunun tam mənada əlillərə nə dərəcədə təsir göstərəcəyini söyləmək çətindir. Ümid edək ki, bu islahat uğurla həyata keçiriləcək. Burada əsas məsələ əlillikdən məhrum olan, tanınmayan əliliklərə görə xəstəlik daşıyıcısı olmasına baxmayaraq, əlillərin işlə təmin olunmamasıdır. İndiyə qədər dolanışıq mənbəyi olaraq, aldıqları müavinətlərin itirilməsi onların böyük bir probleminə çevrilir.**

**Əsli ƏHMƏDOVA**

# İxtisas seçimi edərkən daha çox nələrə diqqət yetirilməlidir?

**Ali təhsil müəssisələrinə ixtisas seçimi avqustun 20-dən etibarən başlanıb. İxtisas seçimi bütün ixtisas qrupları üzrə 2021-ci il avqustun 30-dək internet vasitəsilə aparılır. Bəs şagird ixtisas seçimi edərkən daha çox nələrə diqqət yetirməlidir? Hazırda əmək bazarında hansı ixtisaslar üzrə daha çox tələb var?**

Suallarımızı təhsil ekspertləri **Elçin Əfəndi və Kamran Əsədov** cavablandırıb.



**Elçin müəllim** dedi ki, ali təhsil müəssisələrinə qəbul üçün ixtisasseçmə prosesinin 20-30 avqusta qədər davam etməsi nəzərdə tutulsa da, ehtimal var ki, bu vaxt daha bir gün uzadılsın. İlk növbədə abituriyentlərin ixtisas seçimi zamanı daha çox diqqət yetirməli olduğu məqamları açıqlamaq istəyirəm. Şagirdlər ixtisas seçərkən, ballarının həmin ixtisasa uyğunluğunu nəzərə almalıdır. Eyni zamanda əmək bazarında daha çox tələbat olan ixtisaslara üstünlük verməlidirlər. 1-ci qrup abituriyentlər informasiya, texnologiyayönümlü ixtisaslara, 2-ci qrup abituriyentlər daha çox iqtisadiyönümlü ixtisaslara, maliyyə-mühasibat, menecment, marketinq, 3-cü qrup abituriyentlər humanitar və sosial sahələrə, 4-cü qrup abituriyentlər isə müəllimlik, tibb üzrə sahələrə üstünlük verməlidirlər.

**E.Əfəndi onu da qeyd etdi ki, hansı şəxslər ki, sosial həssas qruplara daxil deyil və təhsil tələbə krediti götürə bilməyəcəklər, onlar yüksək ödənişli ixtisasları seçməməlidirlər. Əks halda dəfələrlə şahidi oluruq ki, ödəniş edə bilmədikləri üçün onlar universitetdə sonradan təhsil almaqdan imtina etməyə məcbur olurlar. Abituriyentlər peşəyönümlü ixtisaslara da üstünlük verməlidirlər. Yəni onlar bacara biləcəkləri peşələrə yönəlsələr daha çox uğur qazana bilərlər.**

**K.Əsədov** isə ali və orta təhsil müəssisələrində qəbul imtahanlarının başa çatmasının ardından daha məsuliyyətli bir dövrün başlayacağını vurğuladı. Belə ki, müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentin qarşısında ixtisas seçimi kimi ciddi problem var. Düzgün, ağıllı qərar qəbul etməli, öz istəyi ilə bərabər mövcud müsabiqə vəziyyətinin reallıqlarını da bilməlidir - ixtisaslar üzrə plan yerlərini, müsabiqədə iştirak edən abituriyentlərin imtahan nəticələrinin bal intervalları üzrə formalaşmış keçid ballarını nəzərə almalıdır. Bu, seçimin uğurlu olmasına müsbət təsir göstərə bilər.

Fərz edək ki, hər hansı ixtisas üzrə qəbul planı 50 yerdir. Həmin ixtisası ərizəsində müsabiqə şərtlərini ödəmiş 300 nəfər göstərib. Bu zaman həmin 300 nəfərdən ən yüksək bal toplayan 50 abituriyent bu ixtisasa qəbul edilir və 50-ci abituriyentin balı həmin ixtisas üzrə formalaşmış keçid balı olur.

Təhsil eksperti bildirdi ki, abituriyentləri ötən illərin tələbə qəbulu müsabiqəsində ayrı-ayrı ixtisaslar üzrə formalaşmış keçid balları da maraqlandırır. Bu da təbiidir, çünki onlar ixtisas seçimi zamanı düzgün istiqamət götürməkdə builki abituriyentlər üçün oriyentir rolunu oynaya bilər. Ayrı-ayrı ixtisaslar üzrə minimal keçid balları müvafiq ixtisası öz ərizəsində göstərən abituriyentlərin sayı, ixtisas üzrə plan yerləri və abituriyentlərin imtahan nəticələri əsasında formalaşır. Bu göstəricilərə əsasən, hər il keçid ballarında müəyyən dəyişmə müşahidə olunsa da, oxşar, təkrarlanan meyillər, tendensiyalar da özünü göstərir.

**Amma 2021-ci ildə seçim edəcək abituriyentlər çox diqqətli olmalıdırlar. Onlara 2020-ci ilin tələbə qəbulu müsabiqəsində formalaşmış keçid balları ilə tanış olmağı məsləhət görürəm, lakin bu ballar ilə tam şəkildə yola çıxmaq uğurlu olmayacaq. Abituriyentlər mütləq şəkildə 2020-ci ildə ixtisas qrupları üzrə onlarla eyni və onlardan çox bal toplayan şagirdlərin sayına və həmin ildəki plan yerlərinə baxmalıdırlar. İxtisaslar üzrə keçid balının formalaşmasına 3 əsas amil-abituriyentlərin sayı, imtahan nəticəsi və plan yerlərinin sayı təsir edir.**

**K.Əsədov** onu da qeyd etdi ki, abituriyentlərə bir məsləhətim də odur ki, 2020-ci ildə bəzi aşağı bal formalaşmış ixtisasların plan yerlərini həmin il ilə müqayisə etsinlər. Çünki bu il onların bəzisində azalma var ki, bu da ixtisas seçimi zamanı onları yanılda bilər. Misal üçün, 2020-ci ildə 250 keçid balının formalaşdığı Azərbaycan Texniki Universitetinin Elektronika, telekommunikasiya və radiotexnika ixtisasında 200 plan yeri var idi, bu il isə o ixtisasda plan yeri 110 yer azalıb. Bu o deməkdir ki, keçən illə müqayisədə bu ixtisasda plan yerinin azalması həmin balın təkrarlanmasına səbəb ola bilər.

Başqa misal, 2020-ci ildə 278 keçid balının formalaşdığı Azərbaycan Neft və Sənaye Universitetinin İnformasiya təhlükəsizliyi ixtisasında 85 plan yeri var idi, bu il isə o ixtisas üzrə plan yeri 25 yer azalaraq 60 olub. Deməli, bu ixtisası seçən abituriyentlər də diqqətli olmalıdırlar.

**Belə hallar çoxdur, ona görə də ixtisas seçimi edən hər kəs Dövlət İmtahan Mərkəzinin (DİM) jurnallarına baxmalıdır, ən əsası heç bir əlavə informasiyaya aldanmamalıdır. Abituriyentlər mütləq şəkildə yalnız DİM-in resurslarından istifadə etməklə uğurlu ixtisas seçimi edə bilərlər.**

**Gülöyşə MƏMMƏDLİ**

# Ərəb ölkələrində qadınlar və gənclər arasında işsizlik artmaqdadır



**Ərəb ölkələrində dünyanın ən yüksək işsizlik səviyyəsi qeydə alınıb, bu göstərici xüsusilə qadınlar və gənclər arasında daha çox artıb. Regionda COVID-19 pandemiyasına qədər 14,3 milyon insan işsiz olub. Bu reallıq BMT-nin İqtisadi və Sosial Komissiyasının dərc olunmuş Qərbi Asiya üzrə hesabatında vurğulandığı kimi, ərəb ölkələrində əmək bazarlarının, xüsusilə də formal sektorun ədalətli və kifayət qədər məşğulluğu təmin etmək bacarığını şübhə altına alır.**

"Məhsuldar və inklüziv inkişafa doğru: ərəb regionunda iş yerlərinin yaradılması" adlı hesabat regionda qeyri-formal iqtisadiyyatın geniş yayıldığını göstərir. Bu da demoqrafik inkişafın, sabit olmayan iqtisadiyyatın və fiskal və pul-kredit siyasətinin nəticəsidir.

BMT-nin İqtisadi və Sosial Komissiyasının Qərbi Asiya üzrə icraçı katibi Rola Daşti ərəb ölkələrinin əmək bazarlarında gender bərabərliyinin olmamasını da vurğuladı. Bildirdi ki, bu da qadınların biznes sahibləri kimi daha aşağı paya malik olmasını və rəhbər vəzifələrdə az təmsil olunmalarını sübut edir: "Biz əmək bazarında gender ayrı-seçkilik təsəvvürlərinə qarşı mübarizə aparmalıyıq ki, qadınlar öz karyeralarında inkişaf edə bilsinlər və təhsil səviyyələrindən faydalansınlar."

**Beynəlxalq Əmək Təşkilatının ərəb ölkələri üzrə regional direktoru Ruba Caradat isə vurğulayıb ki, COVID-19 pandemiyası regionda əmək bazarında artıq mövcud olan çatışmazlıqların aradan qaldırılmasının vacibliyini zəruri edir. Böhranın təsiri gənclər, məhdud imkanlı insanlar, qadınlar, qeyri-rəsmi işçilər, miqrantlar və qaçqınlar üçün xüsusilə ağır olub. Prinsipial olaraq vacibdir ki, biz insana istiqamətlənmiş bərpa prosesinin irəliləməsi və iqtisadi təhlükəsizliyi, bərabər imkanları və sosial ədaləti təmin edən daha yaxşı gələcəyin qurulması üçün fəaliyyətə istiqamətlənmiş yol xəritəsi hazırlayaq.**

Hesabatda həmçinin regionda pandemiyanın təsirinə məruz qalmış istehsal, mənzil, daşınmaz əmlak, biznes və inzibati fəaliyyət kimi bir neçə sahə göstərilir. Bu sahələrdə işləyən 39,8 milyon nəfər işdən azadolunma və ya əməkhaqqının azaldılması ilə təhdid olunur.

**Bundan başqa, qeyd olunur ki, təlim sistemləri və təhsil proqramları əmək bazarının ehtiyaclarına uyğun gəlmədiyindən bacarıqların əhəmiyyətli dərəcədə uyğunsuzluğuna gətirib çıxarır. Faktiki olaraq şirkət sahiblərinin 40 faizi kifayət qədər savadlı olmayan işçi qüvvəsinin regionda maneə olduğunu bildirir.**

Hesabat həmçinin siyasi diskursla əmək bazarının reallıqları arasındakı ziddiyyətləri də göstərir. Siyasətçilər iş yerlərinin yaradılmasında kiçik müəssisələrin rolunu daim müdafiə etsələr də, onlar regionda məşğulluğun ən aşağı səviyyədə artımına malikdirlər.

**Bununla yanaşı, regionda siyasi təlatümlər və münaqişələr sərmayədarların və istehlakçıların etimadına təsir edən, investisiya və istehlakı məhdudlaşdıran, müəssisələrin məhsuldarlığını azaldan əsas maneə olaraq qalır.**

Bu şəraitdə təcili zəruri islahatların aparılması üçün ərəb hökumətləri və sosial tərəfdaşları ilə işləməyin zəruriliyi vurğulanıb. İşçilərin və işəgötürənlərin nümayəndələrinin düzgün koordinasiya və səmərəli iştirakı çərçivəsində əmək sahəsində daha inklüziv gələcəyə uğurla bərpa və səmərəli keçidi təmin edə bilərik.

**Hesabatda əmək bazarında, xüsusilə də formal sektorda kəsirin azaldılması üzrə direktiv orqanlar üçün tövsiyələr verilir və bu sektorun iqtisadi artımın əsas hərəkətverici qüvvələrindən birinə çevirməkdə və bütün regionda layiqli iş yerləri yaratmaqda potensialı açıqlanılır.**



# *İşdən azadedilmə barədə bildiriş ləğv edilməlidir*

**Dağ-mədənçilərin milli həmkarlar ittifaqı (NUM) China Africa Precious Metals (CAPM) qızıl mədənində 200 nəfərin işdən azad edilməsi barədə bildirişin ləğv edilməsini tələb edir. NUM-un məlumatına görə, şirkət 2012-ci ildə mədəni qəbul edərkən burada əlverişli iş şəraiti yaradılmasına və suyun yerin altından nəqlini yaxşılaşdırmağa söz verdi. Həmçinin 10 min iş yerinin yaradılması vəd edilmişdi və buna 2 min nəfərin işə götürməsi ilə başlayacağı söylənilmişdi.**

Ştatların ixtisarı əvəzinə, həmkarlar ittifaqı işçiləri 50 faiz əməkhaqqı ilə müəyyən müddətə işdə saxlamağa çağırır. Bu müddət ərzində şirkət mədəndə qaldırıcı mexanizmləri təmir edə bilər. Bundan sonra işçilər tam gücü ilə işə qayıdacaqlar.

Bundan əlavə, həmkarlar ittifaqı CAPM-ın müvəqqəti fayda proqramı üçün müraciət etməsini istəyir. İşsizlikdən Sığorta Fondu, Müvəqqəti işçilərə / işəgötürənlərə yardım fondu Əmək və Məşğulluq Departamentinə məxsusdur və pandemiyadan əziyyət çəkən şirkətlərə kömək etmək üçün yaradılmışdır.

**"Pamodzi" qızıl mədəninin mürəkkəb tarixi var. CAPM 2011-ci ildə mədəni satın aldı və tələb etdi ki, Cənubi Afrikadakı işçilər "Pamodzi Gold" ilə yeni razılaşmasında öz əmək hüquqlarından imtina etsinlər. Fikir ayrılıqları müzakirə olundu, buna əsasən CAPM-in gələcəkdə qarşılıqlı etimad və xoşməram əsasında konstruktiv əməkdaşlıq etmək öhdəliyini öz üzərinə götürdüyü bildirildi.**

Həmkarlar ittifaqı bəyan edir ki, CAPM kimi Çinə məxsus şirkətlər işçiləri əsas əmək qanunlarına hörmət etmədən istismar edirlər.

2018 -ci ildə NUM işçilərin təhlükəli şəraitdə işləməyə məcbur olacağı vəziyyətlərin qarşısını almaq üçün sağlamlıq və təhlükəsizlik şəraitini yaxşılaşdırmaq məqsədilə mədəndə tətil elan etdi. O vaxt mədən qanunvericiliyinə uyğun olaraq heç bir risk qiymətləndirilməsi yox idi. Tətil Mineral Ehtiyatlar və Energetika Nazirliyini mədəni yoxlamağa və işəgötürənin itaət etməsini tələb etməyə məcbur etdi.

Buna baxmayaraq, işçilər deyirlər ki, operatorlar üçün motor mühərrikləri, kabellər və zəng qeydiyyatı ilə bağlı bəzi məsələlər hələ həll olunmayıb.

**"Xüsusilə COVID-19-un yaratdığı böhran zamanı iş yerləri xilas edilməlidir. CAPM iş yerlərini xilas etməyin yollarını tapmaq üçün NUM və hökumətlə dialoq qurmalıdır. Yadda saxlamaq lazımdır ki, fəhlələrin qayğısına qalmaq üçün ailələri var və onların rifahı ştatların ixtisarına dair qərar qəbul etməzdən əvvəl ciddi nəzərə alınmalıdır",- deyə Saxaradan cənubda olan Afrika ölkələrində İndustriALL-ın regional katibi Pol Frans Ndessomin bildirib.**

# Sərnişin qatarları maşinistlərinin tətili



**Avqustun 23-də Almaniyada sərnişin qatarları maşinistlərinin tətili keçirilib. Bu, son həftələr ərzində baş tutan ikinci tətildir. "Deutsche Bahn" dəmir yolu şirkətinin rəsmi saytında göstərildiyi kimi, iki gün davam edən tətil dəmir yolu daşımalarına ciddi təsir göstərib. "GDL" Həmkarlar İttifaqı tərəfindən təşkil olunan tətildə əməkhaqqının 3,2 faiz artırılması və koronavirus səbəbindən 600 avro məbləğində birdəfəlik müavinət tələb edilir. "GDL" tərəfindən qeyd edilir ki, "Deutsche Bahn" qarşılıqlı anlaşma və problemin həlli üçün bir addım atılmayıb.**

Öz növbəsində "Deutsche Bahn", "GDL"i tənqid edərək birliyin dəmir yolu müştərilərinin və sərnişinlərin arxalarında siyasi oyunlar oynayan danışıqlar masasında bir həll tapmaqdan çəkindiyini söylədi. Tətil Almaniya dəmir yollarının əlaqəsini iflic edə bilər. Bir neçə həftə bundan əvvəl baş verən aksiyalar nəticəsində uzaq məsafəyə hərəkət edən qatarların 75 faizinin marşrutu ləğv edilib.



# ÜST koronavirusun yayılma tempinin stabilləşdiyini bildirib

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) koronavirus infeksiyasının son iki ay ərzində artan yayılma tempinin həftədə 4,5 milyon yeni yoluxma civarında stabilləşdiyini bildirib.**

ÜST-ün bu gün yayılan məlumatına görə, ötən həftə ərzində (16-22 avqust) dünya üzrə təqribən 4,5 milyon yeni yoluxma halı qeydə alınıb. Bir həftə əvvəl bu göstərici 4,4 milyondan çox idi. Təşkilatdan bildiriblər ki, bu, həftəlik yeni yoluxmanın miqdarının sabitləşdiyini göstərir. Xəstəlikdən ölüm halları da əvvəlki həftənin rəqəmlərini çox ötməyib. Belə ki, son həftə ərzində 68 mindən çox insan həyatını itirib. Avqustun 9-dan 15-dək isə 66 mindən çox ölüm halı baş vermişdi.

**Pandemiyanın başlanğıcından bəri dünyada koronavirusa 214 milyona yaxın yoluxma və bu xəstəlik səbəbindən 4,4 milyondan çox ölüm faktı qeydə alınıb.**

# Kollektiv saziş imzalanıb

**Portuqaliyada "SİNTAP" İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Koimbra rayonunun Kantanxeda şəhərində çirkab sularının axıdılması, su təchizatı və digər kommunal xidmətləri yerinə yetirən "İnova" şirkəti ilə yeni kollektiv saziş imzaladı. Həmkarlar ittifaqı xüsusilə də 2022 və 2023-cü illərdə iş vaxtının tədricən həftədə 35 saata qədər azaldılmasını, gecə işi vaxtının dəyişdirilməsini, əlavə məzuniyyət hüququ - hər 10 il xidmət üçün əlavə bir gün və illik məzuniyyətin 2023-cü ilə qədər 25 günə artırılmasını vurğulayır.**

Eləcə də qida və digər əlavə xərclərə görə artım, həmçinin maaşların artırılması da nəzərdə tutulur. Bunun əksinə olaraq "FIQUIEMETAL" tərəfindən dəstəklənən "STAL" yerli özünüidarəetmə birliyinin həmkarlar ittifaqı "EGF / Mota & Engil" qrupunda zəif maaşa, kollektiv müqavilə hüquqlarının olmamasına diqqət yetirərək "ictimai məhkəmələr" kampaniyasını davam etdirir.



# İnsan hüquq və azadlıqlarına hörmət

**Əfqanıstanda talibanların hakimiyyəti ələ keçirməsi ilə bu ölkədən narahatlıq doğuran məlumatların sayı artmaqdadır. BMT və digər beynəlxalq təşkilatlardan sonra Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası və Avropa Həmkarlar İttifaqları Konfederasiyası da bəyanat verib ki, "Taliban" hökuməti qadın və insan haqları ilə bağlı bütün beynəlxalq öhdəliklərə əməl etməlidir.**

Avropa Həmkarlar İttifaqları Konfederasiyası təhlükədə olan insanların təhlükəsiz gedişini və sığınacağını təmin etmək məqsədilə Avropa institutlarını üzv dövlətlərlə birgə fəaliyyət göstərməyə çağırıb. Bildirilir ki, ölkəni tərk etmək istəyən qadınlara və qızlara kömək etmək lazımdır. Həmkarlar ittifaqı fəalları, qadın və insan hüquqlarının müdafiəsi üzrə fəallar, jurnalistlər və bərabərlik, demokratiya və azadlıq uğrunda mübarizə aparanlar onların ölkədən çıxmasını dəstəkləməlidirlər.

# Səhiyyə işçilərinə dəstək



***Macarıstanda 5 milli həmkarlar ittifaqı konfederasiyası iyulun 31-də Budapeştdə keçirilən etiraz yürüşünə dəstək olaraq "MESZK" Tibb İşçiləri Palatasına həmrəylik mesajı göndərdi. Nümayişçilər həkimlərə uyğun olaraq, tibb bacılarının da maaşlarının artırılmasına çağırdılar və bunun tibb bacılarının Qərbi Avropaya miqrasiyasının qarşısını almaq üçün vacib olduğunu iddia etdilər.***

Bu ilin əvvəlində beş konfederasiya hökumət tərəfindən dövlət sektorunda səhiyyə işçilərini danışıqlar və tətillər aparmaq hüququndan məhrum edən yeni qanunvericiliyin tətbiqi ilə bağlı Beynəlxalq Əmək Təşkilatına şikayət etmək üçün bir araya gəldi. Bununla yanaşı, dövlət kommunal müəssisələrinin işçilərinin üç il ərzində əməkhaqlarının 15 faiz artırılması təmin edilməlidir. Bu, ayrı-ayrı şirkətlərdə müxtəlif şəkildə həyata keçiriləcəkdir.

**Səhifəni hazırladı: Azər MUSTAFAYEV**

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ
Son səhifə
CÜMƏ AXŞAMI, 26 AVQUST 2021-Cİ İL / № 31 (1249)


# Uşaqların sağlam gələcəyi bizdən ciddi tədbirlər görməyi tələb edir

**Artıq məktəblilər üçaylıq yay tətilini başa vurmaq üzrədir. Yeni tədris ilini qarşılamağa hazırlaşan şagirdlər istirahət günlərini necə dəyərləndirdilər? Apardığımız kiçik araşdırma göstərdi ki, uşaq əyləncə mərkəzlərinin, kitab evlərinin bağlı qalması, ictimai nəqliyyatın fəaliyyətinin məhdudlaşdırılması və digər səbəblər məktəblilərin fəal istirahətinə mənfi təsir göstərib. Əksər azyaşlılar daha çox günlərini kompüter, planşet, telefonla keçirib.**

**Təhsil Xidmətləri Araşdırma Mərkəzinin rəhbəri Kamran Əsədov** **qeyd etdi ki, ölkəmizdə şagirdlərin yay tətilinin səmərəliliyi üçün ciddi çatışmazlıqlar mövcuddur deyən valideynlər haqlıdırlar. Ölkədə tədris müddəti başa çatdıqdan sonra şagirdlərin asudə vaxtlarının dəyərləndirilməsi ilə bağlı mexanizm yox səviyyəsindədir. Əvvəlki dövrlərdə şagirdlər düşərgələrə gedə bilirdilərsə, hazırda onlar bu imkanlardan məhrumdurlar. Düşərgələr uşaqların birgə yaşayış vərdişləri qazanmasına yardımçı olurdu. Musiqi, rəsm, idman, əmək fəaliyyəti, yaradıcılıq, gəzinti... uşaqların mənəvi, fiziki sağlamlığının inkişafında mühüm əhəmiyyət daşıyır. Həmçinin uşaqlar bu düşərgələrdə nə qədər dost qazanırdılar, biliklərini artırırdılar. Şagirdlərin vaxtının səmərəli təşkil olunması tədris prosesinin ən vacib nüanslarından biridir. Hesab edirəm ki, problemin həlli üçün ilk növbədə hər bir rayon və şəhərdə şagirdlərin yay tətilini keçirə biləcəkləri düşərgələr təşkil edilməlidir.**

K.Əsədov əlavə etdi ki, sovet dövründə təkcə Abşeron ərazisində 16 belə düşərgə fəaliyyət göstərirdi. "Qaranquş", "Mayak" və s. kimi düşərgələrdə şagirdlər istirahətlərini səmərəli keçirirdilər. Xüsusilə bu məsələnin üzərində dayanmaq istərdim ki, dil öyrədən yay düşərgələri Azərbaycana hava-su kimi lazımdır. Bilikli, savadlı uşaqlar çoxdur, amma kommunikativ vərdişlərə malik deyillər. Yay düşərgələri bu vərdişləri əxz etdirmək gücündə olmalıdır. "Düşərgə yoxdur, uşaqlar necə dincəlir, necə istirahət edir", sualına gəlincə, siz də, mən də bunu hər gün görürük: "Maddi imkanı yaxşı olan ailələr uşaqları ilə istirahət guşələrinə gedir, səfərlərə çıxır. O uşaq şanslıdı ki, yaşadığı binanın həyətində attraksionlar hələ sökülməyib, hansısa iş adamı gəlib həyətdə obyekt, market, ya da yanaşı başqa bir hündürmərtəbəli bina tikib oyun meydançasını zəbt etməyib. Nənə-babaları rayonlarda yaşayan uşaqlar da dincəlməyə fürsət tapır. Qalanlar isə, təəssüf ki, vaxtlarını, bir qədər əvvəl dediyim kimi, telefon, planşet, kompüterlə keçirdirlər.




**Pediatr Aytən Bağırova** **isə smartfon alətlərdən saatlarla istifadə etməyin fiziki sağlamlığa nə qədər zərərli olduğunu söylədi: "Uzun müddət kompüter qarşısında oturma şüalanmayla bərabər, sümüklərdə əyilmələrə, qeyri-düzgün inkişafa səbəb olur. Bu, birmənalı şəkildə tənqid olunmalı, hələ körpə yaşlarında nadinclik etməməsi üçün uşağa telefon, planşet verən valideynlər qınanmalıdır. Alimlər bu cihazların yaydığı elektromaqnit dalğalarının insan sağlamlığı üçün təhdid yaratdığını bildiriblər. Qeyd ediblər ki, bu təsirlərin inkişaf dövrünü yaşayan uşaqlar üçün zərərləri daha çoxdur. Ona görə də 16 yaşından kiçik uşaqlar mobil telefondan istifadə etməməlidirlər. Çünki nəticədə uşaqlarda inkişaf pozğunluğu yaranır. Müasir dövrdə uşaqlarda daha çox müşahidə edilən söz ehtiyatı kasadlığı, nitq qüsuru, fikrini sərbəst ifadə edə bilməmək, diqqətini mövzuya cəmləməkdə çətinlik və s. kimi nöqsanlar ortaya çıxır. Həmçinin onlar özlərini həmyaşıdlarından, qohum və valideynlərindən təcrid edərək vaxtlarını elektron media vasitələri ilə keçirməyə üstünlük verirlər.**

A.Bağırova qeyd etdi ki, İsveçin Hospital Universitetinin professoru L.Hardell ikiillik araşdırma nəticəsində müəyyənləşdirib ki, mobil telefonların istifadəsi zamanı beyin xərçəngi riski uşaqlarda böyüklərə nisbətən iki dəfə artıq olur. Təəssüf ki, hazırda biz kiçik uşaqların mobil telefondan istifadəsi ilə hər an rastlaşırıq. Mobil telefonlar oyuncaq kimi körpələrə verilir, məktəbyaşlı uşaqların isə əksəriyyəti ondan istifadə edir.

**Hesab edirəm ki, sağlam gələcək üçün bununla bağlı ciddi tədbirlər görülməli, uşaqların smartfon cihazlardan uzaq durması üçün alternativ yollar tapılmalıdır.**

**Əsli TELMANQIZI**




# Elmir bürünc medal qazanıb

**"Pəhləvan" İdman Klubunun yetirməsi Elmir Əliyev Rusiyanın Ufa şəhərində gənc güləşçilər arasında keçirilən dünya çempionatında bürünc medal qazanıb. Yunan-Roma güləşi üzrə millimizin heyətində yer alan Elmir 55 kq. çəki dərəcəsində mübarizə aparıb. Üçüncü yer uğrunda qarşılaşmada Qazaxıstan təmsilçisinə qalib gələrək dünya çempionatının bürünc medalını boynundan asıb.**

Qeyd edək ki, Elmir yarışlara respublikanın "Əməkdar məşqçisi" Elnur Müzəffərovun rəhbərliyi altında hazırlaşıb.

Xatırladaq ki, yunan-Roma güləşi üzrə millimizin gənc güləşçiləri yarışda 4 medal qazanıblar. Həsrət Cəfərov (67 kq.) bütün rəqiblərinə qalib gələrək dünya çempionu olub. Sərxan Məmmədov (130 kq.) gümüş, Elmir Əliyev (55 kq.) və Nihat Məmmədli (60 kq.) isə bürünc medal əldə ediblər.

**Yekunda 101 xal toplayan millimiz komanda hesabında dünya 3-cüsü olub. Rusiya (183) birinci, İran (130) isə ikinci yeri tutub.**

# Hüquq məsləhətxanası

**Hamiləliyə və doğuma görə müavinət barəsində məlumat verməyinizi xahiş edirəm.**

**Səlimə ƏSƏDOVA, Quba rayonu.**

-Hamiləlik dövründə və doğumdan sonrakı dövr üçün işləyən qadınlara 126 təqvim günü (doğumdan əvvəl 70 təqvim günü və doğumdan sonra 56 təqvim günü) müddətində ödənişli məzuniyyət verilir. Doğum çətin olduqda, iki və ya daha çox uşaq doğulduqda, doğumdan sonrakı məzuniyyət 70 təqvim günü müddətində verilir.

Kənd təsərrüfatı istehsalatının taxılçılıq, pambıqçılıq, üzümçülük, tütünçülük, çayçılıq, tərəvəzçilik, bostançılıq, meyvəçilik, kartofçuluq, yemçilik, tingçilik, bağçılıq, südçülük, donuzçuluq, qoyunçuluq, quşçuluq, atçılıq, baramaçılıq, arıçılıq, xəzlik heyvan və dovşanların yetişdirilməsi və bağçılıq sahələrində bilavasitə çalışan qadınlara hamiləliyə və doğuma görə məzuniyyət aşağıdakı müddətlərdə verilir:

* normal doğumda 140 təqvim günü (doğumdan əvvəl 70 təqvim günü və doğumdan sonra 70 təqvim günü);

* doğum çətin olduqda 156 təqvim günü (doğumdan əvvəl 70 təqvim günü və doğumdan sonra 86 təqvim günü);

* iki və ya daha çox uşaq doğulduqda 180 təqvim günü (doğumdan əvvəl 70 təqvim günü və doğumdan sonra 110 təqvim günü).

Hamiləliyə və doğuma görə müavinət almaq hüququ ən azı 6 ay sosial sığorta stajı olan şəxslərə şamil edilir. Hər iki halda müavinətin aylıq maksimal həddi "Əmək pensiyaları haqqında" qanunun 6-1-ci maddəsinə uyğun olaraq əmək pensiyasının minimum məbləğinin 25 mislindən artıq ola bilməz. Müavinətin ödənilməsi üçün müavinət alacaq şəxs barədə sənədlər və məlumatlar işlədiyi müəssisə tərəfindən "Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi" elektron xidməti vasitəsilə Dövlət Sosial Müdafiə Fonduna göndərilir.

**Uşağın anadan olması ilə bağlı müavinətin məbləği nə qədərdir? Eyni vaxtda 2 uşaq doğulanda müavnət necə ödənilir?**

**Səriyyə VƏLİYEVA, Lənkəran şəhəri.**

-Uşağın anadan olmasına görə birdəfəlik müavinətin verilməsi "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə" ilə tənzimlənir.

Həmin Əsasnamənin 73-cü bəndinə əsasən, uşaq doğularkən ailəyə qanunvericilikdə müəyyən olunmuş məbləğdə birdəfəlik müavinət verilir. Bu müavinətin məbləği hazırda 200 AZN-dir.

Uşaq doğmuş ana işləmədiyi halda və ya hər hansı bir səbəbdən uşağın anası yoxdursa, müavinət işləyən ataya verilir.

Uşağın anadan olmasına görə müavinət Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən ödənilir. Uşaq doğuşuna görə birdəfəlik müavinət müraciət edildikdə verilir və müraciət müddəti məhdudlaşdırılmır.

Əsasnamənin 75-ci bəndinə uyğun olaraq iki və ya daha çox uşaq doğulduqda birdəfəlik müavinət doğulan uşaqların sayına görə verilir. 2 uşağa görə 400 AZN ödənilməlidir.

Uşaq doğumuna görə birdəfəlik müavinət uşağın doğulmasının vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını aparan orqanlarında müəyyən edilmiş qaydada qeydiyyatdan keçirilməsindən sonra verilir.

Bu məsələ ilə bağlı bir neçə məqamı da oxucuların diqqətinə çatdırmaq istəyirik. Belə ki, uşaq diri doğulmuşsa, nə qədər yaşamasından asılı olmayaraq, doğuma görə birdəfəlik müavinət ödənilir. Lakin ölü doğulmuş uşaq üçün bu müavinət ödənilmir.

Övladlığa götürülmüş uşaqlara uşağın anadan olmasına görə birdəfəlik müavinət ümumi qaydada ödənilir.

**İş yerində ixtisara düşmüşəm. Mənim 3 illik məzuniyyətim qalıb, pulunu ödəmək istəmirlər, bu, düzgündürmü?**

**İbrahim ƏHMƏDOV, Bakı şəhəri.**

-Əmək Məcəlləsinin 144-cü maddəsinə əsasən, əmək müqaviləsinə xitam verilməsinin səbəbindən və əsasından asılı olmayaraq, işçiyə işdən çıxan günədək hər hansı şərt və ya məhdudiyyət qoyulmadan istifadə etmədiyi bütün iş illərinin əsas məzuniyyətlərinə görə pul əvəzi ödənilməlidir.

Amma əmək münasibətlərinə xitam verilərkən Əmək Məcəlləsində nəzərdə tutulmuş əlavə məzuniyyətlərə, təhsil və yaradıcılıq məzuniyyətlərinə, habelə sosial məzuniyyətlərə görə pul əvəzi verilmir.

İstifadə etmədiyiniz əsas məzuniyyətlərə görə pul əvəzi Sizə ödənilməlidir.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**

## ALLAH RƏHMƏT ELƏSİN!

Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarova və aparat işçiləri Rəssamlar İttifaqı İstehsalat Yaradıcılıq Kombinatının HİK sədri Sevda Məmmədovaya anası
**SEVİL xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarova və aparat işçiləri Kənd Təsərrüfatı Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Fuad Məmmədova anası
**SÜRƏYYA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarova və aparat işçiləri AHİK-in Təşkilat işləri və məlumat şöbəsinin mütəxəssisi Səyyarə Salamovaya anası
**SEVİL xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarova və aparat işçiləri Binəqədi Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Həmkarlar İttifaqı Komitəsinin sədri Şəfa Quliyevaya anası
**SOLMAZ xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dövlət İdarələri və İctimai Xidmət İşçiləri HİRK-in sədri Hikmət Osmanov və aparat işçiləri Kənd Təsərrüfatı Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Fuad Məmmədova anası
**SÜRƏYYA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dövlət İdarələri və İctimai Xidmət İşçiləri HİRK-in sədri Hikmət Osmanov və aparat işçiləri AHİK-in Təşkilat işləri və məlumat şöbəsinin mütəxəssisi Səyyarə Salamovaya anası
**SEVİL xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiya İşçiləri HİRK-in sədri Rəşad Səfərov və aparat işçiləri Kənd Təsərrüfatı Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Fuad Məmmədova anası
**SÜRƏYYA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Hİ Federasiyasının sədri Tofiq Quliyev və aparat işçiləri AHİK-in Təşkilat işləri və məlumat şöbəsinin mütəxəssisi Səyyarə Salamovaya anası
**Sevil xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə baş sağlığı verirlər.

Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Hİ-nin sədri Hüseyn Kərimov və aparat işçiləri AHİK-in Təşkilat işləri və məlumat şöbəsinin mütəxəssisi Səyyarə Salamovaya anası
**SEVİL xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Hİ-nin sədri Hüseyn Kərimov və aparat işçiləri Təhsil İşçiləri Azad Hİ Yasamal Rayon Komitəsinin sədri
**ELÇİN HƏMİDOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Hİ-nin sədri Hüseyn Kərimov və aparat işçiləri Mədəniyyət İşçiləri HİRK-in aparat rəhbəri
**MİRZƏ ƏLİBƏYOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Təhsil İşçiləri Azad Hİ Şəki Rayon Komitəsinin sədri Ziyafət Xasiyeva sahə Hİ Yasamal Rayon Komitəsinin sədri
**ELÇİN HƏMİDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Şəki Rayon Komitəsinin sədri Ziyafət Xasiyeva sahə Hİ Xaçmaz Rayon Komitəsinin sədri Vaqif İsrafilova qızı
**SEVİNC xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Quba Rayon Komitəsinin sədri İradə İsrailova sahə Hİ Yasamal Rayon Komitəsinin sədri
**ELÇİN HƏMİDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Quba Rayon Komitəsinin sədri İradə İsrailova sahə Hİ Xaçmaz Rayon Komitəsinin sədri Vaqif İsrafilova qızı
**SEVİNC xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Binəqədi Rayon Komitəsinin sədri Zahir Həsənov sahə Hİ Yasamal Rayon Komitəsinin sədri
**ELÇİN HƏMİDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Binəqədi Rayon Komitəsinin sədri Zahir Həsənov sahə Hİ Xaçmaz Rayon Komitəsinin sədri Vaqif İsrafilova qızı
**SEVİNC xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Xəzər Rayon Komitəsinin sədri Həzərxan Əbilov sahə Hİ Xaçmaz Rayon Komitəsinin sədri Vaqif İsrafilova qızı
**SEVİNC xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Suraxanı Rayon Komitəsinin sədri Fərhad Əbilov sahə Hİ Xaçmaz Rayon Komitəsinin sədri Vaqif İsrafilova qızı
**SEVİNC xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ İsmayıllı Rayon Komitəsinin sədri Hafiz Kərimov sahə Hİ Xaçmaz Rayon Komitəsinin sədri Vaqif İsrafilova qızı
**SEVİNC xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ İsmayıllı Rayon Komitəsinin sədri Hafiz Kərimov sahə Hİ Yasamal Rayon Komitəsinin sədri
**ELÇİN HƏMİDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Zərdab Rayon Komitəsinin sədri Etibar Niftalıyev sahə Hİ Xaçmaz Rayon Komitəsinin sədri Vaqif İsrafilova qızı
**SEVİNC xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Zərdab Rayon Komitəsinin sədri Etibar Niftalıyev sahə Hİ Yasamal Rayon Komitəsinin sədri
**ELÇİN HƏMİDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Kürdəmir Rayon Komitəsinin sədri Cəbrayıl Cəbrayılov sahə Hİ Yasamal Rayon Komitəsinin sədri
**ELÇİN HƏMİDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Sabirabad Rayon Komitəsinin sədri Seyidhüseyn Hüseynov sahə Hİ Yasamal Rayon Komitəsinin sədri
**ELÇİN HƏMİDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Siyəzən Rayon Komitəsinin sədri Ziyadə Dadaşova sahə Hİ RK-nın aparat rəhbəri
**MİRZƏ ƏLİBƏYOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7387
Sifariş: 1580
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
Sərbəst qiymət